3. Qoşqarçay yatağının mərkəzi hissəsində tək-tək quyularla sənaye əhəmiyyətli filizləşmənin 300 m-dən artıq dərinliyə davam etməsi faktı, onun cinahlarında yeni filiz yığımlarının aşkar edilməsi üçün çoxlu sayda birbaşa və dolayı əlamətlərinin movcudluğu (köklü çıxışlar, geokimyəvi və geofiziki anomaliyalar) bu yatağı mis-porfir filizlərinin birinci növbəli obyektləri sırasına çıxarır. Qoşqarçay filiz sahəsində mis-porfir filizləşməsinin digər yeni sənaye toplularının (Qoşqardağ təzahürlər qrupu, mərkəzi hissə və ŞQ cinah) aşkar edilmə imkanları ehtimalının çox olması nəzərə alınsa, onda Murovdağ rayonunun bütövlükdə perspektivliyi xeyli yüksəlmiş olar.

4. Murovdağ filiz qovşağında sənaye əhəmiyyətli qiymətli mis-porfir (həmçinin qızıl və polimetal) filizlərinin aşkar edilməsi üçün bütün amillər vardır. Burada güclü çatlılıqla səciyyələnən, intensiv oxralaşmış və mis minerallaşması daşıyan metasomatitlər geniş inkişaf tapmışdır. Yer səthində filizlərin intensiv yuyularaq çıxarılması səbəbindən filiz kütləsini konturlaşdırmaq mümkün olmamışdur. Lakin kifayət qədər əlverişli geoloji şəraitin mövcudluğu (üst yura yaşlı qabbro-diorit və diorit tərkibli intruziv çıxışlar, metasomatitlərin geniş sahəvi inkişafı, geofiziki və geokimyəvi anomaliyalar və s.) burada yer səthindən 50-150 m dərinlikdə sənaye əhəmiyyətli mis filizləşməsinin olması fikrini irəli sürməyə imkan verir, 60-70 kv.km-lik bu sahə geokimyəvi, geofiziki, şlix üsulları ilə bir kompleksdə 1:10000 miqyasında dəqiq axtarış işlərinin aparılması üçün tövsiyə edilir.

**ƏDƏBİYYAT**

АБДУЛЛАЕВ, Р.Н., МУСТАФАЕВ, Г.В., МУСТАФАЕВ, М.А. и др. 1988. Мезозойские магматические формации Малого Кавказа и связанное с ними эндогенное оруденение. Элм. Баку.

БАБА-ЗАДЕ, В.М., МАХМУДОВ, А.И., РАМАЗАНОВ, В.Г. 1990. Медно- и молибдено-порфировые месторождения. Азернешр. Баку.

БАБА-ЗАДЕ, В.М., РАМАЗАНОВ, В.Г. и др. 2005. Цветные металлы. В кн.: *Минерально-сырьевые ресурсы Азербайджана*. Озан. Баку.

ИНСТРУКЦИЯ ПО ГЕОХИМИЧЕСКИМ методам поисков рудных месторождений. 1983. Недра. Москва.

КАЛАНДАРОВ, Б.Г. 2005. Прогнозная оценка перспектив полиметаллических рудных полей Малого Кавказа. *Вестник БГУ, серия естеств. наук,* 4.

МУСТАФАЕВ, Г.В. Меднорудные месторождения Малого Кавказа. 2003. В кн.: *Геология Азербайджана (под ред. Али-Заде Ак.А.). Т. VI: Полезные ископаемые*. Nafta Press. Баку. 114-140.

***Məqaləyə akademik A.C.İsmayılzadə rəy vermişdir***

© Г.Д.Етирмишли, М.И.Исаева, А.Г.Рзаев, 2008

# ОТРАЖЕНИЕ НАПРЯЖЕННОГО СОСТОЯНИЯ СЕЙСМОГЕННЫХ ЗОН В ГЕОМАГНИТНОМ ПОЛЕ

**Г.Д.Етирмишли[1], М.И.Исаева[2], А.Г.Рзаев[1]**

1 – *Республиканский Центр Сейсмологической Службы НАН Азербайджана*
*AZ1001, Баку, ул. Н.Рафибейли, 9*

2 – *Институт геологии НАН Азербайджана*
*AZ1143 Баку, просп .Г.Джавида, 29А*

Рассматриваются аспекты оценки напряженного состояния сейсмогенных зон и выявления краткосрочных предвестников землетрясений по параметрам аномальных изменений напряженности геомагнитного поля. Корреляционный анализ параметров геомагнитного поля и сейсмичности позволил выявить краткосрочный сейсмомагнитный эффект перед землетрясением M=4,6. Доказано присутствие литосферной составляющей, обуславливающей формирование сейсмомагнитного эффекта. Даётся оценка энергетического состояния сейсмогенных зон Шеки-Шамахинского полигона по характеру приращения градиента напряженности геомагнитного поля. Предполагается «геосолитоновая» природа волнового распределения приращения градиента напряженности геомагнитного поля на площади полигона.

**Введение**

Мониторинг изменения напряженности геомагнитного поля вблизи эпицентральных (сеймогенных) зон даёт возможность проследить сложные процессы трансформации земной коры, связанные с перераспределением и накоплением избыточных упругих напряжений внутри этих зон в период подготовки землетрясений.

Эта проблема уже много лет не теряет своей актуальности как прикладного, так и теоретического характера в общей задаче выявления предвестников землетрясений и выработки методики подачи краткосрочного прогноза сильных сейсмических событий.

Область южного склона Большого Кавказа, включающая в себя и площадь Шеки-Шамахинского полигона, является весьма подходящей для проведения работ по изучению аномальных геофизических эффектов в связи с сейсмичностью. Это обусловлено тем, что на площади полигона выделяется несколько сейсмогенных зон, где могут генерироваться землетрясения большой интенсивности. Это Шамахинская, Исмаиллинская, Шекинская, Огузская и Загатальская сейсмогенные зоны. Эти зоны связаны в основном с системой Вандамских разрывных нарушений, с Аджичай-Алятской системой глубинных разломов, а также с Астраханским и Баскальским покровами (в случае Шамахинской зоны). Здесь развиты породы андезитобазальтовой формации байоса, отмечаются проявления Буйнузского интрузива основного состава, а также наличие прямо намагниченных магматических образований мезозоя среднего и основного состава.

Гипоцентры землетрясений Шеки-Шамахинского полигона залегают на различных гипсометрических уровнях. Они прослеживаются как в пределах доальпийского основания, мезозойского комплекса, так и частично в низах кайнозоя. Интервал глубин гипоцентров составляет 5÷25 км.

Таким образом, изучение связи аномальных проявлений в геофизических полях с сейсмичностью в таком сложном регионе, где ярко выражены геологическая неоднородность и мозаичная локализация гипоцентров, представляет интерес и является актуальным как в целях выявления особенностей проявления сейсмомагнитного эффекта (СМЭ), так и дальнейшей детализации многопараметрической модели земной коры исследуемой области полигона. Здесь, по-видимому, следует ожидать наличия характерных различий в проявлении сейсмоаномальных геофизических эффектов от очагов землетрясений, расположенных на различных гипсометрических уровнях в различных по геологическому строению блоках земной коры.

**Обсуждение результатов**

Стационарные наблюдения за вариациями модуля вектора напряженности геомагнитного поля на площади полигона дали возможность получить магнитограммы $T \sim f(t)$ для различных интервалов времени – среднечасовые, среднесуточные (рис.1а,б).





**Рис. 1.** Вариации напряжённости геомагнитного поля. (а) Среднечасовые лунно-солнечные вариации $S_q$ геомагнитного поля





**Рис. 1.** (б) Среднесуточные вариации напряжённости геомагнитного поля T ~ f (t) на г/ф «Шувалан» (2007г.)

Сравнительный анализ функции $T \sim f(t)$ по сети магнитовариационных станций на площади полигона и дальнейшая корреляция выявленных аномальных эффектов в напряженности геомагнитного поля с сейсмичностью в радиусе зоны зависимости $R \sim f(M)$ позволили получить следующие результаты (здесь R – радиус зоны проявления сейсмомагнитного эффекта, M – магнитуда землетрясения; $R=10^{0,5M-1,27}$км).

Анализ структуры лунно-солнечных вариаций $S_q(t)$ указывает на их квазисинусоидальный характер. Сравнение амплитудно-частотных характеристик вариационных кривых $S_q(t)$ по всем станциям полигона свидетельствует об однородности протекания $S_q(t)$ вариаций по всей площади полигона (рис. 1а), что находится в соответствии с положением об однородности падения фронта эдектромагнитной волны на расстоянии порядка 1° по долготе. Именно на таком удалении (и меньше) друг от друга находятся опорные магнитовариационные станции на полигоне.

Средносуточные вариации напряженности $T \sim f(t)$ получены путем осреднения по суткам $S_q \sim f(t)$ вариаций.

Вариации $T \sim f(t)$ представлены широким спектром колебаний напряженности геомагнитного поля (рис.1б). Отчетливо прослеживается низкочастотная гармоника колебаний с амплитудой 0,5÷5,0 нТл. Последняя связана, по-видимому, с наведенной электромагнитной индукцией от влияния инфильтрационных процессов в земной коре. Этот уровень «шумов» находится в пределах ошибки выявления сейсмомагнитного эффекта.

Низкочастотная гармоника осложнена наложенными высокочастотными импульсными колебаниями напряженности поля T, амплитуда которых находится в пределах 5÷10 нТл, а период не превышает нескольких часов.

Высокочастотные колебания напряженности T имеют остроконечную форму и протекают синхронно по всем станциям на площади полигона. Природа этих высокочастотных импульсных колебаний связана с электромагнитными процессами в ионосфере, солнечной активностью и другими внешними факторами. Этот фон «помех» легко устраняется методом сравнительного анализа с последующим сглаживанием методом линейной трансформации (Метакса и др., 1990).

В плане выявления сейсмомагнитного эффекта интерес представляет кривая $\Delta T \sim f(t)$, прошедшая этап «чистки» и нормированная относительно «базовой» (нормальной) станции.

Это кривая $\Delta T(t) = T_n(t) - T_0(t)$, где $T_n(t)$ – наблюденное значение поля T на станциях полигона в момент времени $t$; $T_0(t)$ – наблюденное значение поля T на базовой станций «Шувалан» синхронно времени $t$; $\Delta T(t)$ – нормированное значение T на станциях полигона относительно базовой станции «Шувалан».

На кривой $\Delta T \sim f(t)$ произошедшее 23.08.07 на площади полигона ощутимое землетрясение с M=4,6 на расстоянии $\Delta = 60$ км от геофизической станции «Нагарахана» (граница Шамахинского и Ахсуинского районов) предварялось положительным СМЭ за 10 дней до основного толчка (рис. 2).

Доверительный интервал СМЭ составил 240 часов (период проявления СМЭ). Момент главного сейсмического толчка приходится на правую спадающую ветвь СМЭ. Удаленность эпицентра от станции наблюдения составляет $\Delta = 60$ км, что подчиняется зависимости $R \sim f(M)$. Характер проявления СМЭ, а именно положительное приращение $\Delta T$ в виде «бухтообразования», дает возможность предположить наличие в очаге механизма сжатия (Рзаев, 2005).

Сейсмопрогностические работы на Шеки-Шамахинском полигоне за последние 20-25 лет позволили выявить более 150 случаев аналогичного проявления СМЭ перед землетрясениями с M=4,5÷6,5 и R=150÷1000 км (Рзаев, 2006). Сравнительный корреляционный анализ выявленных СМЭ в пределах $R=10^{0,5M-1,27}$ и количества землетрясений позволил установить, что коэффициент статистической значимости появления СМЭ составляет p=0,87.





**Рис. 2.** Проявление сейсмомагнитного эффекта перед землетрясением M=5,4

Это свидетельствует о имеющей место причинно-временной связи между СМЭ и самими сейсмическими событиями, что указывает на сейсмотектоническую обусловленность выявленных СМЭ (Рзаев, 2006; Рзаев, 2005).

Наряду с работами по выявлению СМЭ в вариациях напряженности геомагнитного поля, в рамках настоящей статьи рассматривался вопрос оценки напряженного состояния сейсмогенных зон на основе анализа приращения градиента напряженности геомагнитного поля $(\sigma\Delta T) \sim f(t)$. В основе этого метода лежит физический механизм изменения вида остаточной намагниченности горных пород под влиянием избыточных упругих напряжений при негидростатическом сжатии.

Оценка напряженного состояния сейсмогенных зон проводилась в результате дискретных геомагнитных наблюдений пространственно-временных приращений градиента напряженности геомагнитного поля $(\sigma\Delta T) \sim f(t)$, где $\sigma\Delta T = \Delta T_n - \Delta T_{n-1}$. Параметр $\sigma\Delta T \sim f(t)$ несёт информацию об энергетически напряженном состоянии сейсмогенной зоны и обусловлен, вероятнее всего, образованием дополнительной пьезоостаточной намагниченности в условиях негидростатического сжатия горных пород (Исаева, Рзаев, 2006).

Дискретные магнитометрические наблюдения велись на площади полигона по сети 120 жестко закрепленных геофизических реперов по методике многократного посещения (не реже одного посещения в месяц).

В результате строились карты пространственно-временных приращений градиента напряженности $\sigma\Delta T \sim f(t)$, нормированные на уровень $\Delta T$ предыдущего месяца (рис.3). На построенных картах $\sigma\Delta T \sim f(t)$ отражаются блоковая тектоника полигона и динамика распределения избыточных напряжений как в местах сочленения отдельных блоков, так и внутри каждого блока. Видно, что напряженный характер в 2007 году присущ Исмаиллинской и Шамахинской сейсмогенным зонам (рис.3). Менее напряженным состоянием отличаются Шекинская зона и северный борт Прикуринской депрессии в месте сочленения её с южным бортом юго-восточного погружения Большого Кавказа, где наблюдаются отдельные немногочисленные землетрясения с K≤8÷10 (рис.4).

Наибольший градиент приращения $\sigma\Delta T$ отмечается в августе 2007 года в Шамахинской сейсмогенной зоне, где в данный период произошло ощутимое землетрясение с K=11,6. Наряду с этим здесь происходит большое количество землетрясений с K=9÷10 и выше (рис.4).





**Рис. 3.** Карта напряжённого состояния сейсмогенных зон Шеки - Шамахинского полигона по приращению градиента напряжённости геомагнитного поля (δΔT) (август 2007)





**Рис. 4.** Карта эпицентров землетрясений за 2007 г.




**Рис. 5.** Волновой характер распределения (δΔT) на площади Шеки – Шамахинского полигона в 2007 г.

Анализ карт $\sigma\Delta T \sim f(t)$ за последние годы свидетельствует о приуроченности максимальных значений $\sigma\Delta T$ к местам трассирования глубинных тектонических нарушений и отдельным тектоническим блокам (Геология Азербайджана, 2002; Rzayev, Mammadli, 2005; Rzayev və b., 2005).

В рамках настоящей статьи приводятся предварительные результаты анализа характера волнового распределения избыточных напряжений на полигоне. Как видно из рис. 5, этот процесс имеет нелинейный характер.

Накопление тектонических напряжений на границе Исмаиллинской и Шамахинской зон много выше, чем в пределах других сейсмогенных зон. Это выражается в резком увеличении амплитуды волны $(\sigma\Delta T)$ на границе зон Исмаиллы-Шамаха и нарушении линейности эффекта затухания и расплывания волн.

Учитывая неоднородность геологической среды полигона, в частности Исмаиллинской и Шамахинской сейсмогенных зон, можно ожидать возникновения здесь ударный волны $(\sigma\Delta T)$ типа «геосолитона». Взаимодействие ударной волны типа «геосолитона» с геологической средой обуславливает, по-видимому, локальные аномальные изменения свойств напряженности геомагнитного поля в виде СМЭ.

Физическая природа этого процесса с позиции известной теории «солитонов» нами предлагается впервые и нуждается в дальнейших исследованиях.

**Заключение**

1. Корреляционный анализ амплитудно-частотных характеристик аномальных изменений в напряженности геомагнитного поля с сейсмичностью позволил выявить сейсмомагнитный аномальный эффект (СМЭ), который можно рассматривать как краткосрочный предвестник ощутимого землетрясения.

2. Результаты сейсмопрогностических исследований убедительно свидетельствуют о присутствии в выявленных сейсмомагнитных эффектах литосферной составляющей.

3. Предполагается «геосолитоновая» природа волнового распределения приращений градиента напряженности геомагнитного поля на площади Шеки-Шамахинского полигона.

**ЛИТЕРАТУРА**

ГЕОЛОГИЯ АЗЕРБАЙДЖАНА (под ред. Али-Заде Ак.А.). T.V. Физика Земли. 2002. Баку. 27-35.

ИСАЕВА, М.И., РЗАЕВ, А.Г. 2006. Магнитные свойства и сейсмомагнитный эффект горных пород Шеки-Шамахинской сейсмогенной зоны. *Изв. НАНА. Науки о Земле*, 2, 38-41.

МЕТАКСА. Х.П., ЦОНИФ, Б.Ф., ГАСАН-ЗАДЕ, Ф.Г., РЗАЕВ, А.Г. 1990. Об информативности импульсной компоненты напряженности геомагнитного поля в качестве индикатора процесса подготовки землетрясения. *Изв. АН Аз. ССР, сер. наук о Земле*, 1.

РЗАЕВ, А.Г. 2005. Оценка механизма очага землетрясения и напряженного состояния сейсмогенных областей по свойствам сейсмомагнитного аномального эффекта. В сб. трудов Пятых и Шестых геофизич. чтений им. В.В.Фединского: *Геофизика XXI столетия: 2003-2004 гг.*, Москва, 58-61.

РЗАЕВ, А.Г. 2006. Связь аномальных изменений в напряженности геомагнитного поля с сейсмотектоническими процессами в литосфере Земли. *Изв. НАНА.Науки о Земле*, 3, 58-63.

RZAYEV, A.Q., MAMMADLI, T.Y. 2005. Seismicity across Azerbaijan's territory and seismomaqnetic effects in geomagnetic field stress. *Geophysics news in Azerbaijan,* Baku, 4, 49-52.

RZAYEV, A.Q., QASANOV, A.Q., ETIRMISHLI, Q.D. 2005. Geomaqnetic data based strain field evaluation. *Geophysics news in Azerbaijan*, Baku, 1, 43-46.

***Рецензент: член-корр. НАН Азербайджана П.З.Мамедов***

© R.Q.Babayev, A.Q.Əhmədov, 2008

# MEZOZOY YAŞLI MƏRCANLI RİF QURUMLARININ GEOLOJİ VƏ GEOFİZİKİ GÖSTƏRİCİLƏRİ
## (ən dərin Saatlı CΓ-1 quyusu timsalında)

**R.Q.Babayev[1], A. Q.Əhmədov[2]**

1 – *Azərbaycan MEA Geologiya İnstitutu*
*AZ1143, Bakı, H.Cavid pr. 29A*

2 – *Geofizika ETİ*
*AZ0012, Bakı, Tbilisi pr. 73*

Geoloji mühitin müxtəlifliyini, orda gedən geoloji proseslərin sirrinin açılmasında, axtarış və kəşfiyyat işlərinin dəqiqliyinin artırılmasında, anomal sahə yaradan geoloji kütlələrin kollektor və fiziki xüsusiyyətlərinin öyrənilməsində sahənin geoloji-geofiziki modelinin tərtib edilməsi böyük əhəmiyyətə malikdir. Model yüksək dəqiqliklə geofizikanın düz və tərs məsələlərinin həllini təmin edir.

Orta Kür çökəkliyində 8324 m dərinliyədək sahəni kəsən ən dərin Saatlı CΓ-1 quyusunda kəsilişin geoloji, geokimyəvi, petroqrafik, hidrogeoloji, nüvə-fiziki və s. sahələri kompleks şəkildə öyrənilmişdir. Lakin quyuətrafı seysmik sahənin geoloji-geofiziki modeli mükəmməl tədqiq olunmamış, süxurların elastik parametrləri, qeyri-bircins kütlələrin ölçüləri, forması və s. məsələlər indiyə qədər tam həll edilməmişdir. Odur ki, bu məqalədə sahənin geniş və dəqiq seysmik geoloji xüsusiyyətləri: geofiziki anomal sahə yaradan kütlələrin fiziki parametrləri, onun ölçüləri, forması və geoloji kəsiliş haqqında yeni informasiyanın alınması məqsədi qarşıya qoyulmuşdur.

## GİRİŞ

Ən dərin Saatlı CΓ-1 quyusu Orta Kür çökəkliyində hələ 30-cu illərdə aşkar edilmiş Talış-Vəndam müsbət qravitasiya anomaliya zonasında yerləşir. Dərinliyi 8324 m olan quyuda aşağıdakı çöküntülər aşkar edilmişdir:

1. Alt və orta yura vulkanogen çöküntüləri, qalınlığı 4784 m;
2. Üst yura-alt təbaşir karbonat çöküntüləri, qalınlığı 710 m;
3. Kaynozoy (miosen-pliosen-dördüncü dövr) qumlu-gilli çöküntüləri, qalınlığı 2830 m.

Qeyd etmək lazımdır ki, çöküntü formasiyalarının əmələ gəlməsində uzun fasilələr olmuş və gec təbaşir epoxasından sarmat dövrünə qədər 54,5 milyon il müddətində yuyulma baş vermiş və çöküntü toplanmamışdır. Buna görə də quyunun kəsilişində mezozoy, paleogen və neogenin digər stratonları müəyyən edilməmişdir. Ümumiyyətlə, ən dərin Saatlı CΓ-1 quyu sahəsinin yura və alt təbaşir çöküntüləri müxtəlif tərkibli süxurlardan, həmçinin kristallik, xırdadənəli və qırıntılı orqanik əhəngdaşlarından təşkil olub, ayrı-ayrı lay dəstələri ilə genetik bağlı olan şelf zonasının çöküntülərindən ibarətdir. Karbonat çöküntüləri 5 lay dəstəsindən təşkil olunub (Алиюлла, Бабаев,1984). Ən böyük maraq doğuran 3150-3445 m dərinlikdə yerləşən (qalınlığı 295m) Carlı və Kürdəmir lay dəstələri xırda əhəngdaşı qəlpələrindən, dəniz kirpilərinin iynələrindən və rifəmələgətirən mərcanlardan ibarətdir. Həmin intervalda yerləşən rif qurumunun mərcan faunası (*Heliocoenia orbignyi Ron., Microsolena foliosa Ron.,Rseudocoenia sp.ind., Complexastraea sp.ind.*) və biomorf əhəngdaşlarının içərisində *Nubelculinella sp., Dentalina sp.. Turrispinillinasp., Nodosarina sp., Pseudoglandulina sp., Haplophramgium sp. Lingulina sp*. və s. foraminifer qabıqlarının (təyinat X.Əliyulla və G.Q. Qasımovanındır), təyin olunmayan serpulaların nadir xırda süngər qalıqlarının və onların spikullarının, dəniz kirpilərinin iynələrinin, xetetid qırıntılarının və inkişaf etməmiş tək yaşayan xırda mərcanların müəyyən edilməsi onun bioherm tipli üzvi qurumun olmasını göstərir.

Saatlı CΓ-1 quyusunun geoloji kəsilişi kompleks quyu geofiziki tədqiqat üsulları ilə də geniş öyrənilmişdir. Geoloji kəsilişin struktur, petrofiziki, geokimyəvi, hidrogeoloji xüsusiyyətləri, mineral tərkibi, radiologiyası, maqnit, elektrik və temperatur xassələri öyrənilmişdir. Həmçinin quyunun 140-3540 m intervalında yerləşən süxurlardan 311 ədəd kern nümunəsi ilə kəsilişin petrofiziki xüsusiyyətlərinin və quyu məhlu-

lunun xüsusi analizi aparılmışdır. Bundan əlavə, kəsilişin seysmik xüsusiyyətləri, o cümlədən akustik karotajın (AK) və seysmik karotajın (SK) məlumatlarına görə, yayılan seysmik dalğaların lay sürətləri və s. araşdırılmışdır. Bir sözlə, ən dərin Saatlı-1 quyusunun kəsilişi haqqında zəngin geoloji-geofiziki material tam toplanmışdır. Lakin quyu kəsilişinin müxtəlif intervallar və laylar üzrə öyrənilmə dərəcəsi eyni olmamışdır, o cümlədən quyu kəsilişində aşkar edilmiş mərcan qurumunun (rifinin) geofiziki sahəyə təsiri araşdırılmamışdır. Odur ki, bizim məqsədimiz mərcan rif qurumu yerləşən əhəngdaşı çöküntülərinin petrofiziki xüsusiyyətləri haqqında mövcud məlumatları ümumiləşdirmək, onların geofiziki sahələrə təsirini araşdıraraq, əldə edilən məlumatlarla onun geofiziki modelini tərtib etmək və bu sahədə xüsusi tədqiqatlar aparmaqdan ibarət olmuşdur. Bundan əlavə, quyu kəsilişində ayrı-ayrı illərdə aparılmış müxtəlif modifikasiyalı elektrik karotajı işlərinin nəticələri ədəbiyyat və fond materiallarında öz əksini tapmışdır (Раджабов, Аксельрод, 1980; Саатлинская сверхглубокая, 2000). Lakin bu külli miqdarda karotaj diaqramlarının interpretasiyasında mərcan rifinin seçilməsinə və onun təsir göstərdiyi sahəyə nədənsə diqqət yetirilməmişdir. Odur ki, biz müxtəlif karotaj diaqramlarından istifadə edib, bu təsiri müəyyən edərək onların xüsusiyyətlərini göstərməyə çalışmışıq.

Tədqiqatlar nəticəsində müəyən edilmişdir ki, rif əhəngdaşalarının kəsiliş boyu periodik olaraq dəyişməsi onların əmələ gəldiyi dövrdə su mühitinin dinamik dəyişməsini göstərir. Belə dinamik dəyişmələr müxtəlif morfoloji tipli üzvi qurumlarının, o cümlədən geniş mənada rifin əmələ gəlməsinə müsbət şərait yaratmışdır. Karbonat çöküntülərinin maraq doğuran alt təbaşirin sorsor lay dəstəsi 2830-3050 m dərinlikdə yerləşib, orqanogen süxurlardan, əhəngdaşı qırıntılarından, az qalınlıqlı tuflardan ibarətdir. Bu çöküntülərin az qalınlıqlı laylardan təşkil olunması karotaj diaqramlarında da özünü büruzə verir. Belə ki, elektrik karotajı, neytron-qamma karotajı və yan karotajı diaqramlarında karbonat çöküntülərinin kəskin diferensasiyası qeyd edilir və bu da süxurların müxtəlif keçiricilik qabiliyyətinə malik olmasını göstərir.

Saatlı CƓ-1 quyusunun karbonatlı rif qurumunun sürət modelinin tədqiqi kompleks-geofiziki məlumatlar əsasında aparılmışdır (Əhmədov, İsmayılova və b., 2001). Kompleks məlumatların əsası aşağıdakılardır:

− Saatlı CƓ-1 quyusu rayonunu əhatə edən seysmik profillərin vaxt kəsilişləri (profillər "Azərneftgeofizika" tresti tərəfindən işlənilmiş, məlumatların emalı və təkrar interpretasiyası müasir baxımdan Geofizika ETİ-da aparılmışdır);

− Sahədə ağırlıq qüvvəsinin dəyişmələri ;

− Saatlı CƓ-1 quyusunda aparılmış seysmik və akustik karotaj işlərinin nəticələri (şaquli qodoqraf, seysmik orta və lay interval sürətləri);

− "Azərneftgeofizika" trestində yeni "Sun" tipli bilgisayarda proses sistemi olan «PROMAX» kompleksi vasitəsilə təkrar emal nəticəsində alınmış vaxt, ani amplitud və ani tezlikli faza kəsilişləri;

− Vaxt kəsilişləri əsasında təyin edilmiş layların dərinlik, şaquli, lateral və interval sürətlərinin dəyişmələri

Saatlı CƓ-1 quyuətrafı seysmik dalğa sahəsi üç hissəyə bölünür. Birinci hissə 2830 m qalınlıqlı molas çöküntülərini xarakterizə edir. Bu hissədə seysmik dalğa ümumi laylanmaya uyğun olaraq müntəzəm dalğa fazaları ilə izlənilir, yəni bu dalğalar yatım şəraitinə uyğun olaraq təhrifsiz və böyük məsafədə izlənilir. Seysmik impulslar 2-3 fazadan ibarət olub, iti piklərlə səciyyələnir. Birinci qrup seysmik dalğalar kaynozoy erasının dördüncü dövr çöküntülərinə uyğun stratiqrafik sərhədlərlə izlənilir.


İkinci qrup dalğalar mezozoyun yuyulma səthindən başlayaraq, alt təbaşir –üst yura çöküntülərini əhatə edir. Bu qrup dalğalar mezozoyun səthinə uyğun olaraq çoxfazalı və kəskin diferensasiyaya uğramışdır. İkinci qrup dalğalar öz mürəkkəb forması və yüksək intensivliyi ilə I qrup dalğalardan kəskin fərqlənir, yəni burada dalğalar kəskin interferensiyaya məruz qalaraq lay boyu qeyri-müntəzəm, qırıq-qırıq izlənilir. Əhəngdaşı çöküntüləri daxilində qeyri-bircinsli üzvi qurum olduqda, dalğanın forması və enerjisi kəskin dəyişmələrə məruz qalır.

Üçüncü qrup dalğalar yura yaşlı vulkanogen çöküntülərinə aid olub, xaotik yazılarla qeyd edilir. Bu çöküntülər daxilində laylanma olmadığından dalğaları böyük məsafədə izləmək mümkün olmur (1-ci şəkil).

Karbonatlı çöküntülərlə səciyyələnən hissədə yazının forması yuxarıdan antiklinal, aşağıdan isə psevdosinklinal formasına uyğun gələn dalğa fazaları ilə izlənilmişdir (2-ci şəkil). Bu dalğa fazaları daxilində seysmik yazı formasının


pozulması, onların intensivliyinin azalması və qırıq-qırıq izlənilməsi müşahidə olunur. Göstərilən dalğa sahəsi dəyişmələri klassik rif qurumunu səciyyələndirən əsas əlamətlərdır. Bundan başqa, rifin üstündə antiklinal quruluşu əks etdirən dalğa fazasının dərinliyi azaldıqca onun üfüqə yaxın izlənilməsi, yəni antiklinal quruluşun amplitudunun azalması faktı da qeyd edilmişdir. Beləliklə, dəyişmələrin üzvi qurumu ilə əlaqədar olması heç bir şübhə doğurmur. Belə ki, həmin qurumun qərb qurtaracağında yerləşən Saatlı CƓ-1 quyusunun kəsilişində müvafik intervalda, qalınlığı 200 m mərcan rifinin mövcudluğu fauna və litologiyaya görə təsdiq edilmişdir (Акаева, Гадиева и др.,1976; Алиюлла, Бабаев, 1984; Əhmədov, İsmayılova və b., 2001; Ахмедов, Бабаев, Мамедов, 2003).

Alt təbaşir karbonatlı çöküntülərinin məhsuldar qatı ilə pazlaşması da böyük maraq kəsb edir. Pazlaşma zonasında seysmik yazının tezlik və intensivliyinin ətraf zonalara nisbətən azalması müşahidə olunur. Onu da qeyd etmək lazımdır ki, pazlaşma zonasının qalınlığı şimali-şərqə doğru artır. Sarıcallar-1 quyu zonasında dalğalar 0,2 saniyə interval fərqi ilə qeyd edilir. Bu da təqribən 500 m qalınlıqlı gil qatına uyğun gəlir. Odur ki, pazlaşma zonasının daha dəqiq öyrənilməsi qarşıda duran məsələlərdən biridir. Karbonatlı çöküntülər daxilində rifi əks etdirən seysmik dalğa dəyişmələri aydın görünmür. Əldə olan mənbələrdən məlumdur ki, qabaqlayıcı Saatlı quyusunda mərcan rifinin qalınlığı 20 m-dir. Odur ki, vaxt kəsilişində onu səciyyələndirən xüsusiyyətlər zəif qeyd edilmişdir.




**1-ci şəkil.** Miqrasiya olunmuş seysmik dalğa sahəsi

Şərti işarələr: 1 – çeşidlənmiş kobud xırdaqırıntılı süxurlar; 2 – gillər; 3 – alevrolitlər; 4 – qumdaşları; 5 – əhəngdaşları; 6 – bazaltlar; 7 – andezitlər; 8 – doleritlər; 9 – uyğunsuzluq.




**2-ci şəkil.** Mərcan rif qurumunun miqrasiyasız seysmik yazıda əksi

SQ-1 – ən dərin Saatlı quyusu; $N_1^3s$ – üst miosen şöbəsi sarmat mərtəbəsi; $K_1$ – alt təbaşir şöbəsi; $J_3$ –üst yura şöbəsi

**SEYSMİK DALĞANIN YAYILMA SÜRƏTİNİN XÜSUSİYYƏTLƏRİ**

Saatlı CГ-1 quyusunun geoloji kəsilişinin sürət xüsusiyyətləri 7 km dərinliyə qədər mükəmməl öyrənilib. Belə ki, göstərilən intervalda (0-7 km) kəsilişi təşkil edən süxurların elastiklik xüsusiyyətləri seysmik və akustik karotaj (SK, AK), həmçinin vaxt kəsilişi haqqında məlumatlar təkrar interpretasiya əsasında daha da dəqiqləşdirilib.

Seysmik karotaj (SK) məlumatlarından kəsilişin çoxlaylılığı (10-11) və dərinlik artdıqca lay sürətinin 2100 m/s-dən 6000 m/s-yə qədər artması müşahidə olunur. Bizi maraqlandıran alt təbaşir–üst yura karbonat çöküntülərində sürətin kəskin artması qeyd edilir. Belə ki, təbaşirin üstündə yatan 50 m qalınlığa malik olan sarmat çöküntülərində lay sürətinin qiyməti 3,5 km/s olduğu halda, əhəngdaşlarında sürət artaraq 5,3 km/s olmuşdur. Bu çöküntülərdən dərində yatan vulkanogen süxurlarda isə lay sürətinin 6,0 km/s-yə qədər artması müəyyənləşdirilib (1-ci cədvəl).

Yüksək tezlikli AK vasitəsilə alınmış sürət materiallrından geoloji kəsilişin daha da nazik laylardan təşkil olunması aşkar edilmişdir. Bununla belə, AK məlumatlarına görə, kəsilişdə kəskin seçilən lay dəstələrinə də rast gəlmək olur. SK sürətinə uyğun olaraq AK sürətinin də əhəngdaşı çöküntülərində kəskin artması müşahidə olunur. Bu artma fonunda rif qurumu ətraf süxurlardan kəskin seçilmir. Belə ki, rif qurumu daxilində sürətin kəskin diferensasiya olması onun ətraf süxurlardan seçilməsini çətinləşdirir.

AK və SK məlumatları ilə təyin edilmiş lay sürətləri arasında oxşar xüsusiyyətlərlə yanaşı, fərqli cəhətlər də mövcuddur. Bu fərq bəzən 200-300 m/s-yə çatır. Lakin dərində yatan vulkanogen süxurlarda bu qiymətin daha da böyük olması müəyyənləşdirilmişdir. Göstərilən uyğunsuzluqlar metodların ölçmə bazasının müxtəlif olması və istifadə edilən dalğa tezliyinin kəskin fərqlənməsi ilə izah edilir.

***1-ci cədvəl***

Karotaj məlumatlarına əsasən karbonatlı rif çöküntülərinin səciyyəsi


| Sıra №-si | Stratiqrafiya bölgüsü | Litologiya | Dərinlik, H, m-lə | SK lay sürəti V,km/s | AK lay sürəti V, km/s | OK $I_{x,mkron/saat}$ | NQK | | YMK p,0mm | YKZ p,0mm | Sıxlıq σ,q/s $m^3$ |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | $I_{xn,}$ Şər.vah. | M.Ə. Km,% | | | |
| 1 | kaynozoy | qumlu-gilli | 0-2830 | 2,7 | 2,3 | 12-14 | 1,2-1,5 | 20-30 | 3-6 | 1-3 | 2,2 |
| 2 | alt təbaşir-üst yura | əhəngdaşı qatları | 2830-3540 | 5,36 | 6 | 6-12 | 0,6-2,7 | 3-32 | 4-450 | 20-300 | 2,56 |
| 3 | alt təbaşir-üst yura | orqanik mənşəli rif qurumu | 3100-3290 | 5,36 | 6 | 5,5-7,5 | 0,8-2 | 4-8 | 50-420 | 45-340 | 2,63 |
| 4 | alt və orta yura | vulkanogen süxurlar | 3540-5000 | 4,73-6 | 4,25 | 2-4 | 1,3-2,5 | 4-28 | 4-55 | 4-90 | 2,73 |

İnterval sürətinin şaquli dəyişmələri ümumi qayda ilə (Diks düsturü əsasında) hesablanmış, alınan nəticələr isə SK, AK və EK məlumatları ilə müqayisə edilmişdir. Sürət qrafikləri 3000 m dərinliyə qədər bir-biri ilə uzlaşır (3-cü şəkil). Lakin əhəngdaşı çöküntülərinin səthindən başlayaraq qeyri-uyğunsuzluqlar müşahidə olunur. SK və AK qrafiklərində əhəngdaşı çöküntülərində lay sürətinin kəskin artması qeyd edildiyi halda, şaquli interval sürəti əyrilərinldə bu hal çox zəif qeyd edilmişdir. Belə ki, 2,3 saniyədən etibarən təbaşir çöküntülərində izlənilən sürətin zəif azalması müşahidə olunur. Bu azalma daxilində isə mərcan qurumlarını (riflərini) seçmək mümkündür. Rifdə sürətin 100-150 m/s azalması onun kollektor xüsusiyyətləri ilə, o cümlədən məsaməliliyinin çox olması ilə əlaqədardır.

Sahə üzrə interval sürətinin lateral dəyişmələri də öyrənilmişdir. Onların hesablanma qaydası heç də şaquli interval sürətinin hesablanmasından fərqlənmir. Lateral dəyişmədə sürətin diskret ölçülmə sayı daha çoxdur. Odur ki, sürət dəyişmələrinin etibarlılığı yüksək olur.

Abşeron çöküntülərinin daxili (horizont 1-2; 6-cı şəkil), məhsuldar qatın tavanı–sarmat (1-P) və məhsuldar qat–alt təbaşirin ($1\text{-}P^1$) yuyulma səthinə uyğun laylar üzrə tərtib edilmiş interval sürəti qrafiklərindən sürətin Sarıcallar-1 quyusundan başlayaraq cənub-qərb istiqamətində azalması aydın görünür. Belə azalmalar Saatlı СГ-1 quyusu rayonuna qədər səlis davam edir. Belə ki, 1-2 layı üzrə Sarıcallar rayonunda interval sürəti 2480 m/s olduğu halda, Saatlı-1 quyu sahəsinin yaxınlığında 2350 m/s olmuşdur. Bu hal 1-2 layı üçün də təkrar olunur, yəni sürətin qiyməti uyğun olaraq 2850-2675 m/s müəyyən edilmişdir. Qeyd etmək lazımdır ki, Saatlı СГ-1 və Sarıcallar-1 quyuları zonasında 2500 m dərinliyə qədər müxtəlif laylar üzrə interval sürətinin qiyməti təxminən üst-üstə düşür. Lakin Sarıcallar-1 quyusunun dərinliyi 2995 m olduğuna görə ondan dərində yatan laylar üçün sürətin müqayisəli təhlilini vermək mümkün olmamışdır. Saatlı СГ-1 quyusu rayonunda isə bu laylarda ($1\text{-}P^1$, 1-P və alt təbaşir–üst yura) sürət dəyişmələrinin nisbətən mürəkkəbləşməsi və diferensasiyası qeyd edilmişdir. Ən böyük dəyişmələr (SK, AK və şaquli interval sürətlərində olduğu kimi) 710 m qalınlığa malik əhəngdaşları daxilində baş verir. Belə ki, dalğa sürətinin $1\text{-}P^1$ layında 3225-3280 m/s, 1-P layında 3250-3350 m/s, «P» horizontu ilə mərcan rif qurumunun tavanı üçün isə 3170-3350 m/s intervalında dəyişməsi qeyd edilir. Rifin örtüyündə interval sürətinin azalmasını onun genezisi və litologiyasının kəskin dəyişməsi ilə izah etmək olar. Ümumi olaraq bu azalma əhəngdaşı çöküntülərinin məsaməliliyinin çox olması ilə əlaqədardır. Bununla belə, interval sürətinin burada zəif də olsa (100-150 m/s) azalması rif qurumunu ayırmağa imkan verir (3-cü şəkil).


Mərcanlı rif qurumu nümunəsinin laboratoriya şəraitində öyrənilməsi Moskvada Yer Fizikası İnstitutunun laboratoriyasında aparılmışdır (Ефимова, 2001). Laboratoriya və çöl seysmik ölçülərinin nəticəsində qeyd edilmişdir ki, qeyri-kvazihidrostatik şəraitində rif qurumunda sürətin azalması daha kəskin qeyd edilir. Rif qurumu nümunəsinin yüksək təzyiq altında delatansiya halına çevrilməsi Carlı rif qurumu nümunəsində də qeyd edilmişdir (Салехли, Авчян, 1977; Авчян, 1979; Ахмедов, 2003). Burada da dalğa sürətinin 20% azalması təyin edilmişdir. Beləliklə, güman etmək olar ki, yüksək təzyiq altında süxur nümunələrinin polimorf hala çevrilməsi və sürətin kəskin azalması ən çox rif qurumu təşkil edən süxurlara məxsusdur. Bu məsələnin geniş öyrənilməsi və onun güclü zəlzələlərin proqnozunda da istifadə olunması təklif edilmişdir (Ахмедов, Ниязов, 2002; Ахмедов, 2003).




**3-cü şəkil.** Karotaj məlumatlarına görə CΓ-1 quyu kəsilişində karbonat rif çöküntülərinin səciyyəsi

## SEYSMİK DALĞANIN AMPLİTUD XÜSUSİYYƏTLƏRİ

Saatlı sahəsi üzrə dalğa enerjisinin və fazalarının səlis izlənilən amplitud dəyişmələri araşdırılmışdır. Bu araşdırmalar MQ ($I_{AI}$) və təbaşirin səthinə uyğun ($P_{A2}$) seysmik horizontlar üzrə aparılmışdır (4-cü şəkil). Amplitud dəyişmələri hər iki horizont üzrə kəskin diferensiyaya məruz qalmışdır. Birinci horizont üzrə dalğa amplitudunun Sarıcallar-1 quyusundan Saatlı CΓ-1 quyusuna doğru azalması müşahidə edilir. Dalğanın udulma əmsalı (α) 0,7 x $10^{-3}$ $m^{-1}$-ə bərabər olmuşdur. Belə udulma Saatlı CΓ-1 quyuətrafı sahəni nəzərə almasaq, P horizontu üzrə də qeyd olunmuşdur ($\alpha$ = 0,9 x $10^{-3}$ $m^{-1}$). Quyu zonasında isə dalğa amplitudu kəskin dəyişərək ümumi ortalaşmaya yaxınlaşmamışdır. Saatlı CΓ-1 quyusu zonasında amplitudun belə mürəkkəbləşməsini süxurların fiziki-kimyəvi xüsusiyyətlərinin kəskin dəyişməsi ilə əlaqələndirmək olar. Sarıcallar-1 quyusundan 500 m şərqdə amplitudun kəskin artmasını dərinlik kəsilişində həmin lay üzrə qeyd edilmiş kiçik pozulma ilə əlaqələndirmək olar. Lay pozulması P horizontunda qeyd edilsə də, yuxarıda yatan laylar üzrə müşahidə olunmur.




**4-cü şəkil.** СГ-1 quyuətrafı sahənin amplitud qrafikləri A= f(x)

1 – MQ çöküntüləri daxilində horizontdan alınan seysmik dalğa amplitudunun dəyişmələri (MQ $A_1$)b; 2 – təbaşir çöküntülərinin səthinə uyğun horizontda qeyd edilən dalğa amplitudunun dəyişmələri ($PA_2$); 3 – amplitudların nisbətinin profil boyu ($PA_2$ / $MQA_1$) dəyişmələri; 4 – seysmik sərhədlər; 5 – seysmik dalğa amplitudunun anomal azalma zonası;

I-P horizontlararası layların elastiki xüsusiyyətini öyrənmək üçün amplitudun nisbi dəyişməsi araşdırılmışdır. Bunun üçün profil boyu $\frac{A(P)}{A(I)}$ nisbəti öyrənilmişdir (4-cü şəkil). Qrafikdən göründüyü kimi, nisbi amplitud dəyişməsi də horizontlar üzrə amplitud dəyişmələrinə uyğun olaraq Sarıcallar-1 quyusundan Saatlı-1-ə doğru azalmışdır, lakin nisbi azalma kəskin qeyd olunmuşdur. Seysmik dalğa amplitudu nisbətinin $\frac{A(P)}{A(I)}$ Saatlı rif qurumu zonasında 5, lakin güman edilən qonşu rif qurumu daxilində isə 8 dəfə azalması qeyd edilmişdir (3-cü cədvəl).

Yuxarıda qeyd etdiyimiz pazlaşma zonasının mürəkkəbliyi ani amplitud və ani tezlik kəsilişində daha qabarıq nəzərə çarpır. Bu kəsilişlərdən istifadə edilərək, geoloji modelin bəzi xüsusiyyətləri dəqiqləşdirilmişdir.

***2-ci cədvəl***

Rif və rifətrafı çöküntülərdə müxtəlif tezlikli dalğa sürətləri

| Sıra №-si | Ölçü üsulları | Dalğa tezliyi | V, m/s | | | H,m | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | V,»P» | $V,R_ö$ | $V,R_a$ | H,»P» | $H,R_ö$ | $H,R_a$ |
| 1 | AK | $KH_s$ | 2700 | 5000 | 5500 | 2830 | 3100 | 3290 |
| 2 | SK | $H_s$ | 3000 | 4300 | 4300 | 2830 | 3100 | 3290 |
| 3 | $V_{int}$ (Diks düsturu) | $H_s$ | 3400 | $V_{int}$ | | | | |
| | | | | $R_ö$ | $R_d$ | $R_a$ | | |
| | | | | 3200-3300 | 3200 | 3400 | | |
| 4 | Labarotoriya, yüksək təzyiq $17QP_a$ | $MH_s$ | | | | | | |

P – mezozoyun yuyulma səthi
H – seysmik sərhədlərin dərinliyi
V – seysmik dalğanın yayılma sürəti
$R_ö$ – rif örtüyü
$R_d$ – rifdaxili
$R_a$ – rifaltı
$KH_s$ – kilohers
$H_s$ – seysmik tezlik
$MH_s$ – meqahers

***3-cü cədvəl***


Dalğanın udulma xarakteristikası

| Sıra №-si | Profilin №-si | Əksetdirici sərhədlər | Rif və rifətrafı sahədə udulma əmsalının qiyməti $\alpha$, $10^{-3}$1/m | Anomaliyanın ayrıldığı intervalın uzunluğu, m-lərlə | Rif zonasında dalğa amplitudunun nisbi azalması, dəfələrlə |
|---|---|---|---|---|---|
| 1 | I | A(I) | 0,7 | | |
| | | A(P) | 0,9 | | |
| | | A(P)/ A(I) | | 800 | 5-8 |
| 2 | II | A(I) | 0,01 | | |
| | | A(II) | 0,13, 0,12 | | |
| | | A(P) | 0,17, 0,12 | | |
| | | A(P)/ A(II) | | 1000 | 8 |
| | | | | 600 | 6 |

Qeyd: P – mezozoyun səthi;
I,II – horizontun sayı.

P horizontunun ani amplitud və ani tezlik xüsusiyyətləri əldə olunan nəticələri zənginləşdirir. Demək, Saatlı CГ-1 quyuətrafı zonada qeyd edilmiş ehtimal olunan rif qurumunun dalğanın ani tezlik xarakteristikasında qabarıq seçilməsi ilə yanaşı, onun formasını da dəqiqləşdirmək mümkün olmuşdur (5-ci şəkil). Ehtimal edilən rif qurumu daxilində də seysmik yazının amplitud və tezliyinin kəskin azalması müşahidə olunur. «Nal» şəkilli maneə-rif qurumunu ani amplitud və miqrasiya olunmuş vaxt kəsilişlərində də izləmək mümkündür. Lakin onun sərhəd və forması ani tezlik kəsilişində daha qabarıq nəzərə çarpır (5-ci şəkil).

Qeyd edilən linzavari üçüncü rif qurumunu əks etdirən seysmik yazının xüsusiyyətləri əvvəlki qurumların yazıları ilə üst-üstə düşür. Qalxımın yamacında seçilmiş qeyri-bircinsli kütlənin ətraflı öyrənilməsi üçün tədqiqatları davam etdirmək lazımdır. Qeyd etdiyimiz güman olunan linzavari qurumun da zəncirvari düzülmüş rif qurumunun davamı olduğunu, o cümlədən erkən təbaşir–gec yura epoxalarında zəncirvari düzülmüş bu rifəbənzər qurumların şelf zonasında olduğunu da fərz etmək olar. Odur ki, bu zonada məqsədyönlü təcrübi və nəzəri tədqiqat işlərinin aparılmasının faydalı və səmərəli olmasına şübhə yeri qalmır.




**5-ci şəkil.** Ani tezlik kəsilişində rif və rifəbənzər qurumların əksi

Əsasən qumlu-gilli süxurlardan təşkil olunmuş kaynozoy çöküntüləri (0-2830 m) ətraf sahələrdə çox geniş öyrənildiyindən onun təkrar geniş tədqiqinə ehtiyac yoxdur. Lakin Muradxanlı sahəsində karbonat və vulkanogen süxurlarda neft yatağı açıldığından Saatlı CГ-1 quyusu kəsilişinin alt təbaşir–üst yura əhəngdaşı (2830-3540 m) və orta yura vulkanogen (3540-8324 m) çöküntülərinin araşdırılmasına məqalədə lazımi diqqət yetirilmişdir. Bu çöküntülərin petrofiziki xüsusiyyətləri ilə yaxından tanış olaq.

Sıxlığı 2,56 q/sm$^3$ olan mezozoy yaşlı karbonat çöküntülərinin tərkibində dəmir 320 q/t, manqan 170 q/t və cüzi miqdarda digər elementlərdən təşkil olunmuş kiçik qalınlıqlı bazalt laylarına da rast gəlinir. Bu çöküntülər daxilində 3500 m dərinlikdə yüngül qaz (metan) və 3250 m dərinlikdə isə rif qurumu daxilində xüsusi çəkiyə malik ağır qaz fraksiyaları qeyd edilmişdir (Саатлинская сверхглубокая, 2000). Orqanik qaz əlamətləri də seysmik yazılarda öz əksini tapmışdır. Belə ki, 2,48 saniyədən etibarən vaxt kəsilişində mərcanlı rif qurumunu əks etdirən seysmik yazının intensivlik, tezlik və s. dalğa parametrlərinin anomal dəyişməsinə qaz təzahürü də təsir göstərə bilər. Kəsilişin bu hissəsində temperatur rejim də anomal qiymətə malikdir. Sorsor, carlı əhəngdaşı çöküntülərində temperatur 74-90 $^0$C olduğu halda, Saatlı CГ-1 quyusunda 60-62 $^0$C-dir. Dərinlikdən asılı olaraq, əhəngdaşlarında temperaturun zəif dəyişməsi T=0,0158H+11,70 ifadəsindən də görünür (Саатлинская сверхглубокая, 2000). Bu çöküntülərin istilikkeçirmə qabiliyyəti 1,86-2,93 Vt/m-dir. Kəsilişin üst hissəsində uyğun olaraq radioaktiv elementlərin də miqdarı azalır. Kəsiliş boyu radioaktiv elementlərin istilikvermə qabiliyyətinin ən minimum qiyməti (0,33 mkVt/m$^3$) mərcan rifinin yerləşdiyi sahəyə uyğun gəlir. Əhəngdaşlarında sorbsiya xüsusiyyətinə malik karbohidrogen qazlarının miqdarı (2,1-5,31 sm$^3$/kq) və tərkibi, demək olar ki, çox az dəyişir. Saatlı CГ-1 kəsilişində 2830 m dərinlikdə yerləşən karbonatlı süxurlar bütün karotaj diaqramlarında aydın qeyd edilmişdir (3-cü şəkil). Belə ki, yan karotaj zondlaması əyrisində fərz olunan xüsusi müqavimətin, AK və SK qrafiklərində isə lay sürətinin karbonat çöküntülərinin tavanında, yəni 2830 m dərinlikdə kəskin artması, eyni vaxtda həmin hissədə qamma və neytron qamma karotajı (QK,NQK) əyrilərində təyin edilən parametrlərin kəskin azalması qeyd edilmişdir. Kəsilişin dərin qatlarının elektirik müqaviməti yan mikrokarotajı ilə daha dəqiq ölçülmüşdür. Belə ki, kaynozoy qumlu-gilli kəsilişində elektrik müqaviməti (ρ) 3-6 Omm arasında dəyişdiyi halda, alt təbaşir-üst yura karbonat çöküntülərində bu kəmiyyətin qiyməti artaraq 450 omm olmuşdur. Dərində yatan vulkanogen süxurlarda isə ρ =4-55 Omm-ə bərabərdir.

Ümumiyyətlə, dərinə getdikcə qrafiklər

diferensasiyaya məruz qalır. Bu diferensasiya daxilində 200-300 m qalınlıqlı mərcan rifinin sərhədlərini birmənalı təyin etmək çətindir. Yan karotaj zondlaması diaqramında təbaşir çöküntülərində elektrik müqaviməti 20 Omm-dən 300 Omm-dək artmışdır. Mərcanlı rif zonasında müqavimətin qiyməti dəyişməmişdir. 3540 m dərinlikdən, yəni orta və alt yura vulkanogen süxurlarda müqavimət azalaraq ρ=4-90 Omm intervalında qeyd edilmişdir.

Əhəngdaşı çöküntüləri daxilində QK diaqramı da dəyişmişdir. Belə ki, bu çöküntülərdə təbii qamma şüalanmanın ($I\chi$) kəsilişin alt hissəsinə (12-14 mkren/saat) nisbətən azalaraq 6-12 mkren/saat olması müəyyənləşdirilmişdir.

Məqalə Abşeron yarımadasının müasir landşaftları strukturunun transformasiyasında təbii amillərin roluna həsr edilmişdir. Abşeron yarımadasının müasir landşaftlarının transformasiyasında təbii amillərdən əhəmiyyətli dərəcədə təsir edənləri palçıq vulkanları, sürüşmələr, zəlzələlər və Xəzər dənizinin müasir səviyyə tərəddüdləridir. Məqalədə son dövrlərdə Abşeron yarımadasında baş verən palçıq vulkanı püskürmələri, sürüşmələr, zəlzələlər, Xəzər dənizinin səviyyə tərəddüdlərinin təsiri nəticəsində landşaftların strukturunda əmələ gələn transformasiyalar və onlara qarşı mübarizə tədbirləri öz əksini tapmışdır.

Abşeron yarımadasının müasir təbii landşaftları əsasən pleystosendə və holosendə formalaşmışdır. Müasir relyefin və təbii landşaftın tam formalaşması isə əsasən yeni Xəzər əsrində baş vermişdir. Xəzərin transqressiyası nəticəsində dəniz müasir səviyyədən 6-8 m yuxarıda yerləşən sahilboyu zolağı örtmüş, iqlim nisbətən rütubətli olmuş və təbii landşaftlarda quru çöllər üstünlük təşkil etmişdir. Qobustandakı qayaüstü rəsmlər göstərir ki, Abşeronun bitki örtüyü və canlı aləmi yeni Xəzər əsrində bugünkündən daha zəngin olmuşdur. Sonra iqlim quraqlaşmış, Xəzər dənizi geri çəkilmiş və təbii landşaft müasir görkəmini almışdır. Yarımadanın müasir landşaftları fiziki-coğrafi mühitin bir sıra aparıcı komponentlərinin (iqlim, relyef və süxurların litologiyası) təsiri nəticəsində formalaşmışdır (Ширинов и Сулейманов, 1964). Qobustanda və Abşeron yarımadasında landşaftların transformasiyasında və daxili diferensiasiyasında dövrü olaraq fəallaşan və landşaftın yeni litogen əsasını yaradan palçıq vulkanlarının mühüm rolu vardır. Belə ki, arid iqlim şəraitində palçıq vulkanlarının dövrü olaraq duzlu brekçiyaları yer səthinə çıxarmaları və örtük yaratmaları ilə əlaqədar olaraq landşaftın halofitləşməsi baş vermişdir. Bununla yanaşı, Xəzər dənizinin özünəməxsus iqlimi də bütövlükdə müasir landşaftların formalaşmasına güclü təsir göstərmişdir (Mikayılov, 1976).

İndiki dövrdə Abşeronda təbii proseslərin inkişafı elə mürəkkəb və müxtəlif istiqamətli axardadır ki, onların landşaftlara təsirinin səbəb və nəticə əlaqələrinin tədqiqi çox mühüm və çətin elmi problemdir. Yəni təbii proseslər və antropogen fəaliyyət, bu və ya digər dərəcədə bütün yarımadanı əhatə edərək, elə qarışıb ki, onları bütün təbii ekosistemlərdə baş verən proseslərə görə diferensiallaşdırmaq praktiki olaraq mümkün deyildir. Bütün bu prosesləri müasir neotransformasiyaya aid etmək olar.

Qeyd etmək lazımdır ki, bütün təbii amillərin təsiri bir qayda olaraq tədrici və uzunmüddətli (geoloji və tektonik quruluş, torpaq yaradan süxurlar və s.), eyni zamanda vaxt baxımından əraziyə daxil olan hava kütlələri, iqlim şəraiti, eroziya, Xəzərin müasir səviyyə tərəddüdləri isə nisbətən qısamüddətlidir.

Müasir landşaftların transformasiyasında təbii amillərdən tektonik proseslərin əhəmiyyətli rolu vardır. Abşeron yarımadasında geniş yayılmış palçıq vulkanlarının landşaftın formalaşmasına və transformasiyasına təsiri müstəsna olmaqla, müasir tektonik proseslər Abşeron landşaftlarının dəyişməsinə son dövrlər praktiki olaraq cüzi təsir göstərmişdir.

Abşeron yarımadasında dövrü olaraq yer səthinə böyük həcmdə duzlu brekçiyalar çıxararaq yeni litoloji örtük yaradan palçıq vulkanları (Qobu Bozdağ, Otman Bozdağ, Keyrəki, Abix, Lökbatan və s.) mövcud landşaftların deqradasiyasında və transformasiyasında böyük rol oynayır. Yarımsəhra və quru çöl iqlim şəraitində

palçıq vulkanları püskürən zaman yer səthinə toksik duzlarla zəngin brekçiyalar çıxarır və onlar vulkanların gövdəsində və ətəklərdə torpaq-bitki örtüyü olmayan səth yaradır və bir müddət bu brekçiyaların üzərində bitki inkişaf edə bilmir və tədricən palçıq vulkanlarının səthində duzluğa dözümlü ətlişoran, qarağan bitkiləri inkişaf edir. Beləliklə, palçıq vulkanları arid iqlim şəraitində landşaftların halofitləşməsinə səbəb olur. Belə landşaftlar daha sabit inkişafa malik olan ətraf ərazi landşaftlarından nisbətən az məhsuldarlığa malik olması ilə fərqlənir. Xəzər sahili landşaftların dəyişməsində dənizin səviyyə tərəddüdləri mühüm rol oynayır. Belə ki, 1929-1930-cu illərdə Xəzər dənizi səviyyəsinin kəskin düşməsi ilə əlaqədar Abşeron yarımadasının sahil landşaftları daha çox quraqlaşmaya, hidromorf landşaftlar isə deqradasiyaya məruz qalmışdır. Bu isə sahil boyu hissədə qum tirələrinin və qumların intensiv sovrulmasına səbəb olmuş, qruntun rütubət təminatı kəskin dəyişmişdir. Belə transformasiya, təbii ki, landşaftların ümumi daxili diferensiasiyasına təsir etmişdir. Xəzərin səviyyəsinin düşməsi qrunt suları səviyyəsinin düşməsinə səbəb olur, nəticədə təkrar şoranlaşma prosesi güclənir. 1977-ci ildən başlayaraq son 25-30 il ərzində Xəzər dənizi səviyyəsinin 2 m-dən artıq qalxması dəniz sahili alçaq düzənliklərin su altında qalmasına, relyefin və landşaftların yenidən qurulmasına, qrunt sularının səviyyəsinin qalxması isə alçaq sahil düzənliklərində şoranlıqların, bataqlıqların, göllərin sahəsinin kəskin artmasına səbəb olmuşdur. Abşeron yarımadasının Şahdili, Zirə və Gürgan kəndləri sahəsinin qumlu dəniz sahilində yerli kənd sakinləri 1970-ci illərə qədər mövcud olmuş Xəzər dənizinin alçaq səviyyəsində qrunt suları səviyyəsinə yaxınlaşmaq və bostan (tərəvəz) bitkiləri becərmək üçün burada dərinliyi 2 m-ə çatan çoxsaylı müxtəlif ölçülü və formalı çuxurlar qazmış və bu çuxurlarda uzun illər bostan bitkiləri becərilmişdir. Lakin XX əsrin axırıncı rübü ərzində Xəzər dənizi səviyyəsinin 2 m-dən artıq qalxması müvafiq olaraq qrunt sularının səviyyəsinin qalxmasına səbəb olmuşdur. Bununla əlaqədar olaraq dəniz sahili qumlu düzənliklərdə insan əli ilə yaradılmış sıx düzümdə olan çoxsaylı çuxurlar qrunt suları ilə dolaraq dərinliyi 1-1,5 m-ə çatan cilli-bataqlı göllər yaranmış və yarımsəhra landşaftları əsaslı şəkildə dəyişərək hidromorf landşaftlara çevrilmişdir (Mikayılov, 2003).

Palçıq vulkanlarının dövrü olaraq püskürdüyü brekçiya və digər püskürmə məhsullarının yer səthinə mütamadi çıxması ilə mövcud landşaftların strukturunda yeni elementlər yaranır. Bu materiallar brekçiya axınları şəklində əvvəlki axınların səthini qalınlığı onlarla santimetrdən bir neçə metrə qədər çatan yeni qatlarla örtür. Beləliklə, palçıq vulkanları sahəsində, maqmatik vulkanlar sahəsində olduğu kimi, tez-tez baş verən püskürmələr zamanı torpaq və bitki örtüyünün normal-sabit inkişafı pozulur, səthdə torpaq örtüyü tam inkişaf etməmiş yeni təbəqələr yaranır, yəni landşaftın litoloji əsası dəyişir. Beləliklə də, palçıq vulkanlarının zirvəsində, yamaclarında və ətəklərində landşaftlar müxtəlif yaşlı və müxtəlif inkişaf səviyyəli olurlar. Palçıq vulkanlarının dövrü püskürməsi nəticəsində əvvəlcə yaranmış genetik torpaq horizontlarının örtülməsi, yəni landşaftların yeniləşməsi baş verir (Будагов, Микаилов, 1985).

Qobustan–Abşeron rayonunun palçıq vulkanlarının püskürmə materiallarının yer səthinə çıxma dövründən asılı olaraq, cavan və qədim brekçiya landşaftları ayrılır. Bunlar da bir-birindən məhsuldarlığına, xarici proseslərə məruz qalma dərəcəsinə görə kəskin fərqlənir.

Vulkan fəaliyyətinin landşaftların yaranmasında dolayı təsiri əsasən süxurların, suyun, qazların və s. komponentlərin kimyəvi tərkibində özünü biruzə verir. Qeyd olunanlar landşaftların formalaşmasında öz mənfi, ya müsbət təsirini göstərir.

Palçıq vulkanları yayılan ərazilər üçün püskürmələrin dövrülülüyündən, onların yaşından, püskürmə məhsulunun həcmindən, mexaniki və kimyəvi tərkibindən, qalınlığından və yamacların ekspozisiyasından asılı olaraq, özünəməxsus landşaft transformasiyaları səciyyəvidir (Ахмедов, 1985).

Abşeron yarımadasının yarımsəhra və qismən quru çöl landşaftları daxilində formalaşan palçıq vulkanları landşaftları səciyyəvi xüsusiyyətlərinə görə daha sabit inkişafa malik olan ətraf landşaftlardan fərqlənir. Bunu əyani olaraq palçıq vulkanlarının yaş xüsusiyyəti ilə fərqlənən landşaftlarının daxili diferensiasiyasında aydın görmək olar.

Məlum olduğu kimi, 2000-ci il oktyabr ayının 19-da Ceyranbatan su anbarının yaxınlığındakı dağ tirələrinin birində Keçəldağ palçıq vulkanı püskürmüşdür. Nəticədə tirənin çox hissəsi püskürmə zamanı çökmüş və böyük ərazidə çatlar əmələ gəlmişdir. Bu palçıq vulkanı Bakı və Sumqayıt əhalisinin mühüm içməli su mənbəyi olan Ceyranbatan su anbarı üçün təhlükə

yaratmış və su anbarına müəyyən miqdarda vulkan materialları daxil olmuşdur. Lakin bu, suyun tərkibində dəyişiklik yaratmamış və su içmək üçün yararlı qalmışdır. Ceyranbatan su anbarına tərəf istiqamətlənmiş eni 200-250 metr, uzunluğu 500 metrə yaxın böyük bir sahədə nəzərə çarpan dəyişikliklər təbii fəlakətin miqyasını qiymətləndirməyə imkan verir.

Son 4-5 il ərzində Abşeron yarımadasındakı bir sıra palçıq vulkanları (Qobu Bozdağ, Keyrəki, Otman Bozdağ, Lökbatan və s.) püskürməyə məruz qalaraq landşaftlarda müəyyən dəyişikliklər, ayrı-ayrı təsərrüfat obyektləri üçün isə təhlükə yaratmışdır. Məsələn, 2001-ci ilin oktyabrın 25-də Lökbatan vulkanı püskürdü. Fəallığına görə bu palçıq vulkanını dünya rekordçusu da adlandırmaq olar. Budəfəki püskürmə 1838-ci ildən indiyədək keçən müddət ərzində sayca 23-cüdür. Heç bir palçıq vulkanı belə tezliklə püskürməyib. Eyni zamanda, 2002-ci il fevral ayının 28-də isə Binəqədi rayonunda, Xırdalan qəsəbəsi yaxınlığındakı Keyrəki palçıq vulkanının da püskürməsi baş verdi.

Landşaftların deformasiyaya uğramasında sürüşmələrin rolunu xüsusilə qeyd etmək lazımdır. Abşeron yarımadasında, Əhmədli və Bakı yaylalarında sürüşmələr təbii və texnogen landşaftların dəyişməsinə öz fəal təsirini göstərir. Göstərilən ərazilər sürüşməyə meyilli olan fəal zonadır. Burada, xüsusilə Bakı yaylasının Bayıl sahəsində əvvəllər də sürüşmələr baş vermiş, nəticədə qalın süxur kütləsi hərəkət edərək sürüşmə terrasları yaratmışdır. Bu sürüşmə terrasları pilləkənvari formada Şəhidlər Xiyabanına tərəf qalxır. Hər birinin arasında mövcud olmuş çatlar dərinləşib və suxurları parçalayıb və onları hazırda sürüşmə kütləsinə çevirib.

Regiondakı süxurlar əsasən əhəngdaşlarından, qumdaşları, gil və qumlu gillərdən təşkil olunub ki, belə süxurlar da adətən sürüşməyə daha həssas olurlar (Budaqov, 2001).

2000-ci ilin mart ayının əvvəllərində (6 mart saat 19.20) Bakı şəhərinin Bayıl massivində dəniz səviyyəsindən 142 m hündürlükdə baş verən sürüşmə prosesi daha böyük dağıntıya səbəb olmuşdur. Bu sürüşmə uçqun-sürüşmə xarakterli olub, əvvəlki sürüşmələr nəticəsində əmələ gəlmiş massivin çat boyu qırılıb əsas yamacdan ayrılması nəticəsində baş vermişdir. Sürüşmələrin Bayılda baş verməsi «qravitasiya prosesi» və yeraltı suların mövcüdluğu ilə sıx bağlıdır.

Sürüşmənin əmələ gəlməsində təbii amillərlə yanaşı, antropogen amillərin rolu daha böyük olmuşdur. Əsas səbəb isə zonada aparılan tikinti işlərinin təsirilə 30-35$^0$ meyilliyi olan yamaclarda kəsimlərin əmələ gəlməsi, məişət sularının əraziyə axıdılması, Şəhidlər Xiyabanında ağacların suvarılması, Azərbaycan Televiziya və Radioverilişləri QTSC binasının həyətindəki çarhovuzların sularının sızması və sürüşmə müstəvisinin üzərinə toplanması olmuşdur. Sürüşmə ikitəkanli olmuşdur. Birinci təkan nəticəsində iri çatlar yaranmışdır. İkinci təkan isə 2000-ci il martın 7-də gecə 4.30-da baş vermişdir. Nəticədə sürüşmə zonasında yerləşən yaşayış binaları, sosial və sənaye obyektləri, ərazidən keçən kommunikasiya xətləri tam dağılmış, müvəqqəti olaraq Bayıl zonasının şəhərin mərkəzi ilə əlaqəsi kəsilmişdir. Sürüşmə zonası 250 min m$^2$ sahəni əhatə etmişdir. Təbii fəlakətin vurduğu ziyanın məbləği 150 mlrd. (30 mln. AZN) manata yaxındır. İlkin olaraq bu məqsədlə dövlət tərəfindən 50 mlrd. manat (10 mln. AZN) pul ayrılmışdır. 1990 və 1998-ci illərdə də həmin ərazidə sürüşmə hadisəsi baş vermişdir. 2001-ci ilin may və iyun aylarında da sürüşmə davam etmiş, müəyyən çatlar əmələ gəlmişdir. Hazırda Zığ, Bakı yastanının ətrafında, Qaraçuxur qəsəbəsinin yaxınlığında olan ərazilər də sürüşmə təhlükəsi olan regionlardır və burada yüksək rütubətlənmə şəraitində istənilən vaxt sürüşmə əmələ gələ bilər. Bir neçə il bundan əvvəl Əhmədli yaşayış massivində, 2004-cü ilin oktyabr ayında Qaraçuxur qəsəbəsinin yaxınlığında baş verən sürüşmə-uçqun buna misaldır. 2005-ci il yanvar ayının 5-6-da Bakı şəhərində Nərimanov heykəlinin ətrafında qravitasiya çatları və çökmə prosesi baş verməsi çox təhlükəli vəziyyət yaratmışdır. Buna səbəb ərazidə çoxmərtəbəli binaların tikilməsi, məişət tullantı sularının ərazilərə axıdılması və tikinti ilə əlaqədar yamaclarda qazma işləri apararaq süxurların dayanaqlı halının pozulması olmuşdur.

Xəzər dənizinin səviyyəsinin qalxması ilə əlaqədar abraziya prosesinin təsiri altında bir sıra yerlərdə sahilin uçulub-dağılması prosesi də fəallaşmışdır. Abraziya təsiri altında az-çox böyük uçqunlar Abşeron yarımadasının şimal sahillərində əhəngdaşı laylarından əmələ gəlmiş dik yamaclarda müşahidə edilir.

Azərbaycanın 1:200000 miqyaslı geomorfoloji xəritəsində sürüşmələrin coğrafi yayılması, onların fəallıq dərəcələri göstərilmişdir. Alimlərimiz baş verən sürüşmələri tədqiq etmiş, sürüşmələrin rayonlaşmasını, fəallığına görə təsnifatını vermişlər. Qeyd edilməlidir ki, Bakı-Abşeron regionu sürüşmə üzrə fəal ərazi hesab olunmur. Burada yalnız kiçik ərazidə intensiv sürüşmələr baş verir.

Sürüşmələr əsasən alçaq və orta dağlıq ərazilər üçün səciyyəvidir (Budaqov, 2001).

Təbii təhlükəli hadisələrdən biri və ən dəhşətlisi zəlzələdir. İnsanlar həmişə belə hadisələri qabaqcadan öyrənməyə, onları yaradan səbəbləri aşkar etməyə çalışırlar. Abşeron yarımadasında 1842, 1910, 1911, 1934, 1961, 1963, 1986, 1989-cu illərdə təsiri müşahidə oluna bilən zəlzələlər olmuşdur. 100 il ərzində Abşeronda 30-dək zəlzələ müşahidə edilmişdir. Bunların bəziləri 6-7 bal gücündə idi, onların hamısı tektonik xarakterlidir. Lakin bəzi zəlzələlər palçıq vulkanlarının püskürməsi ilə əlaqədardır. Məsələn, 1830-cu ildə Bozdağ vulkanının, 1887-ci ildə Lökbatan vulkanının püskürməsindən yerin tərpənməsi hiss olunmuşdu. Maştağa –Bilgəh regionu tektonik pozulma xətti üzərində olduğundan bu zona Abşeron yarımadasında ən fəal seysmik sahədir. Orada səkkiz, qalan ərazilərdə isə yeddi ballıq zəlzələ baş verə bilər. Son vaxtların ən güclü zəlzələsi 2000-ci ilin noyabr ayının 25-də saat 20.00-da baş verən və hiposentri Bakıdan 100 km şimalda Xəzər dənizində olan zəlzələ yarımadaya xeyli ziyan vurdu. Onun gücü 6-6,5 bal qiymətləndirildi. Rəsmi məlumatlara görə, bu zəlzələdən sonra Bakı şəhərində 532 binada ciddi qəza vəziyyəti müəyyən olunmuşdur. Bu binalardan 452-si yaşayış evi, qalanları isə təhsil, səhiyyə və digər sahələrin müəssisələri olmuşdur. Zəlzələnin vurduğu ziyanı aradan qaldırmaq üçün ilkin olaraq dövlət tərəfindən 5 mln. AZN maliyyə vəsaiti ayrılmışdır. Ümumiyyətlə, bu işləri tam görmək üçün isə 24 mln. AZN manat tələb olunmuşdur.

Ümumiyyətlə, Bakı şəhəri ərazisində sürüşmə hallarının baş verməsi ilk növbədə binaların tikilməsi, kommunikasiya xətlərinin çəkilməsi və digər təsərrüfat işlərinin aparılması zamanı bu yamacların mühəndis-geoloji şəraitinin və relyef xüsusiyyətlərinin nəzərə alınmaması kimi də başa düşülməlidir. Əgər nəzərə alsaq ki, şəhər 6-8 ballıq seysmik zonada yerləşir, bu yamaclarda iri və hündür yaşayış evlərinin tikilməsi yamacların antropogen yüklənməsinə səbəb olur. Nəticədə 5-10 m qalınlıqlı yumşaq çökmə süxurlardan təşkil olunmuş psevdoterraslar qravitasiya nəticəsində yamac boyu aşağı sürüşməyə məruz qalır. Bu binalarda kanalizasiya sistemlərinin nasazlığı nəticəsində məişət sularının süxurlara hopması isə prosesə əlavə təkan verir. Sürüşmə proseslərinin qarşısının alınması üçün bir sıra tədbirlər görülməlidir. Buna isə mühəndis qurğularının tikilməsi, yamacların yaşıllaşdırılması, qrunt sularının ərazidən çıxarılması, təbii landşaftın antropogen yükünün azaldılması və meliorativ tədbirlərin elmi əsaslarla aparılması kimi yollar aiddir.

Yaşayış massivlərinin bəziləri çox təhlükəli təbii obyektlər olan palçıq vulkanlarının ətəklərində və bəzən yamaclarında inşa edilir. Keyrəki və Ziyilpiri vulkanlarının ətrafında bu gün də evlər inşa edilir. Bu işlər tamamilə dayandırılmalıdır. Sahil abraziya proseslərinin güclənməsinə dəniz sahillərində balıqqulağı və qumların tikinti materialları kimi istifadə olunması səbəb olduğundan bu işlərin qarşısı alınmalıdır. Abşeron yarımadasında Xəzər dənizinin səviyyə tərəddüdlərinin sahil landşaftlarına təsirinin elmi əsasları işlənib hazırlanmalıdır. Bu məqsədlə inkişaf etmiş ölkələrin (məs., Yaponiyanın, Almaniyanın, Hollandiyanın) təcrübəsindən istifadə etmək lazımdır.

**ƏDƏBİYYAT**


AZƏRBAYCAN Respublikasının Fövqəladə Hallar üzrə Dövlət Komissiyasının məlumatı. 2000. *«Respublika» qəzeti*, 8 mart.

BUDAQOV, B.Ə. 2001. Coğrafiya elminin uğurları. I kitab. İsmayıl, Bakı. 253-254.

MİKAYILOV, A.A. 2003. Abşeron yarımadası landşaftlarının təbii və antropogen amillərin təsirilə səhralaşması xüsusiyyətləri. *Azərbaycanda səhralaşma problemləri.* Bakı. 59-62.

MİKAYILOV, A.A. 1976. Azərbaycanın palçıq vulkanlarının geniş yayıldığı ərazilərin müasir landşaftları. *Вопросы истории развития рельефа и ландшафты Азербайджанской ССР. Труды Института географии,* XVI. Элм. Баку. 111-115.

АХМЕДОВ, А.Г. 1985. Грязевые вулканы и окружающая среда. Общество Знание Азерб.ССР. Баку. 80.

БУДАГОВ, Б.А., МИКАИЛОВ, А.А. 1985. Развитие и формирование ландшафтов Юго-Восточного Кавказа в связи с новейшей тектоникой. Элм. Баку. 122-123.

ШИРИНОВ, Н.Ш., СУЛЕЙМАНОВ, М.А. 1964. Аномалия в ландшафте южных предгорий Большого Кавказа (в пределах Азербайджана). *Учен. записки АГУ, Сер. геогр.наук,* 2, 24.


***Məqaləyə c.e.d. E.K.Əlizadə rəy vermişdir***

© Z.N.Eminov, 2008

# AZƏRBAYCANIN KƏND TƏSƏRRÜFATINDA VƏ TORPAQLARDAN İSTİFADƏNİN STRUKTURUNDA BAŞ VERƏN DƏYİŞİKLİKLƏR

**Z.N.Eminov**

*Azərbaycan MEA akad. H.Ə. Əliyev adına Coğrafiya İnstitutu*
*Az 1143, Bakı, H. Cavid prosp., 31*

Kənd təsərrüfatı ölkənin təsərrüfat strukturunda, əhalinin işlə təmin edilməsində mühüm yer tutur. Aqrar islahatlar aparıldıqdan sonra əhalinin daxili tələbatını ödəyən dənli bitkilərin, bostan-tərəvəz, kartof məhsullarının əkin sahələri və məhsul yığımı artmışdır. Əhalinin gündəlik tələbatını ödəyən məhsulların becərilməsi aqrar sənaye kompleksinin (ASK) inkişafına əhəmiyyətli təsir göstərmir və Azərbaycanın xarici bazardan asılılığını gücləndirir.

Belə vəziyyətdə ölkənin müxtəlif regionlarında mövcud olan və ASK-ya daxil olan müəssisələrin xammallarla təminatında da ciddi problemlər yaranmışdır. Ona görə bu istehsal obyektlərinin çoxu işləmir, əhalinin məşğulluğunun təmin edilməsi, həyat səviyyəsinin yüksəldilməsi və yaşayış məntəqələrinin sosial-iqtisadi inkişafı çətinləşir.

**Problemin vəziyyəti:** Müstəqillik illərində aparılan aqrar islahatlar kənd təsərrüfatının sahə və ərazi strukturunda ciddi dəyişikliklərə səbəb olmuşdur. Bu dövrdə pambıqçılıq, üzümçülük, tütünçülük, çayçılıq və baramaçılıqda məhsul istehsalı və əkin sahələri bir neçə dəfə azalmışdır. Onlar mühüm strateji əhəmiyyət kəsb edən sahələrdir, məhsulları dünya bazarında yüksək qiymətləndirilir, xammallarına və hazır məhsullarına daim yüksək tələbat vardır, çox gəlir gətirməsi və yüksək əmək tutumluluğu ilə fərqlənir. Ona görə bu sahələr əhalinin məşğulluğunda, həyat səviyyəsinin yüksəldilməsində, maddi gəlirlərinin formalaşmasında əhəmiyyətli yer tutmuşdur. Ölkədə toplanmış pambıq, üzüm, tütün, çay məhsulları ASK-nın müəssisələrində emal edilmişdir, bu müəssisələr yaşayış məntəqələrinin sosial-iqtisadi bazasının formalaşmasına mühüm təsir göstərmişdir.

Hazırda kənd təsərrüfatı məhsullarının istehsalı aşağı səviyyədədir. Belə vəziyyət emal müəssisələrinin bərpa edilməsi, yenilərinin yaradılması üçün kifayət etmir. Ona görə də kənd təsərrüfatında gedən proseslərin mənfi nəticələrinin öyrənilməsi, bu sahədə aparılan iqtisadi islahatların elmi əsaslarının işlənib hazırlanması vacibdir.

**Məsələnin qoyuluşu:** Tədqiqat işi statistika, müqayisə, təhlil, tarixilik, kartoqrafik üsullardan istifadə edilməsi əsasında yerinə yetirilmişdir. Məqalədə təhlillərin aparılması zamanı Dövlət Statistika Komitəsinin materiallarından, kənd təsərrüfatı sahələrinə aid olan elmi ədəbiyyatlardan istifadə edilmişdir.

**Məsələnin həlli:** Kənd təsərrüfatı ölkənin təsərrüfat strukturunda, əhalinin məşğulluğunda əhəmiyyətli yer tutsa da, ümumi daxili məhsulun (ÜDM) istehsalı və formalaşmasında cüzi rola malikdir. Buna səbəb onun maddi-texniki təminatının aşağı və yarıtmaz səviyyədə olması, bu sahədə əsaslı dönüş yaradılması üçün fermerlərdə və torpaq mülkiyyətçilərində kifayət qədər maliyyə vəsaitinin olmaması, dövlət orqanlarının bu problemin həlli üçün onlara lazımi yardım göstərməməsidir.

ÜDM-in istehsalında kənd, meşə və balıqçılıq təsərrüfatlarının payı 1995-ci ildə 33,4%, 2006-cı ildə 10,7% olmuşdur (Azərbaycanin statistik…, 2007). 2007-ci ildə bu göstərici kənd təsərrüfatı üzrə 6,2%-ə enmişdir (2007-ci ildə ölkənin…, 2008).

2006-cı ildə əvvəlki ilə nisbətən artım 0,9%, 2007-ci ildə 4,0%, o cümlədən bitkiçilikdə 2,4%, heyvandarlıqda 6,1% qeydə alınmışdır. Lakin keçən il ölkədə pambıq istehsalı 23,2% və ya 30,1 min ton, tütün istehsalı 39,9% və ya 1,9 min ton, yaşıl çay yarpağı yığımı 27,0% və ya 176 ton azalmışdır (2007-ci ildə ölkənin…, 2008).

Kənd təsərrüfatı müəssisələrinin texnika ilə təminatı zəruri olan tələbatdan aşağı səviyyədədir və yarıtmaz vəziyyətdədir. Kənd təsərrüfatı müəssisələrində, fərdi sahibkarlar, ailə-kəndli təsərrüfatları və ev təsərrüfatlarında 1995-ci ildə 33174 traktor, 8770 kotan, 4273 taxıl-yığan, 2653 pambıqyığan, 6702 toxumsəpən ma-

şını, 4512 kultivator olmuşdur. 2005-ci ildə traktorların sayı 14887-yə, kotanların sayı 3019-a, taxılyığanların sayı 1298-ə, pambıqyığanların sayı 22-yə, toxumsəpənlərin sayı 1412-yə, kultivatorların sayı 1009-a enmişdir (Azərbaycanin statistik göstəriciləri, 2007). "Aqroservis" müəssisələrinin də texniki təminatı çox aşağıdır. Məsələn, onların tabeliyində 2005-ci il üçün 575 traktor, 122 taxılyığan, 1 pambıqyığan maşın vardı. Ölkədə 2005-ci ildə əkilmiş sahələrin 1327,9 min ha olduğunu nəzərə alsaq, 90 min hektara 1 traktor, 600 ha dənli bitki sahəsinə 1 taxılyığan kombayn düşür.

Ölkənin aqrar sektorunun inkişafına kömək məqsədilə yaradılmış "Aqrolizinq" şirkəti kənd təsərrüfatı məhsullarının becərilməsi üçün təşkil edilməli olan texnikanın təminatını lazımi səviyyədə qura bilmir, texnikanın satılması və icarəyə verilməsi şərtləri çox ağırdır. Kənd təsərrüfatı məhsullarının satış və tədarük qiymətləri ilə texnikanın kreditə verilməsi və onun ödənilməsi qiymətləri arasında çox böyük fərqlər vardır. Belə vəziyyət becərilməsi üçün yüksək dərəcədə texniki təchizat, maddi-texniki təminat, meliorasiya tədbirləri həyata keçirilməsini tələb edən pambıqçılıq, üzümçülük, tütünçülük və çayçılıq sahələrinin genişləndirilməsinə imkan vermir.

Bu gün əkin sahələri artırılan bostan-tərəvəz məhsullarının, kartof, dənli bitkilərin becərilməsi üçün çoxlu miqdarda əl əməyi tələb edilir. Onların becərilməsi üçün texnikaya böyük ehtiyac yoxdur, meliorasiya tədbirləri, mineral gübrələr tələb edilmir, gəlirləri az vaxtda əldə edilir, məsrəfləri azdır, məhsullarına daim yüksək səviyyədə daxili tələbat vardır. Lakin bu proseslər kənd təsərrüfatının inkişafına, emal müəssisələrinin yaradılmasına mənfi təsir göstərir. Torpaq sahələrində uzun illər eyni məhsulların əkilməsi onların məhsuldarlığının aşağı düşməsinə, çox hissəsinin sıradan çıxmasına səbəb olur, aqrotexniki tədbirlərin həyata keçirilməsi çətinləşir.

1996-cı ildən sonra ölkədə istifadə olunan əkin və bağ sahələri 65,4 min ha azalmışdır. Azalma əsasən çoxillik əkin sahələri hesabına olmuşdur. Əhalinin sayının artması, son dövrlərdə onlara verilən şəxsi həyətyanı təsərrüfat sahələrinin genişlənməsi, yeni təsərrüfat obyektlərinin, yolların, kommunikasiya şəbəkəsinin yaradılması kənd təsərrüfatında istifadə edilən torpaqların xeyli azalmasına gətirib çıxarmışdır.

Abşeron iqtisadi rayonunda istifadə edilən əkin və bağ sahələri bu amillərin təsiri ilə 4,3 dəfə (21,7 min hektardan 5,1 min hektara qədər), Quba-Xaçmazda 20,4 min ha, Dağlıq Şirvanda 30,5 min ha, Şəki-Zaqatalada 23,9 min ha azalmışdır. Nəticədə bu iqtisadi rayonların ölkənin əkin və bağ sahələrində xüsusi çəkisi də xeyli aşağı enmişdir. 2005-ci ildə ölkədə əkin və bağ sahələrinin 44,6%-i Aran, 12,4%-i Gəncə-Qazax, 11,7%-i Şəki-Zaqatala, 8,0%-i Quba-Xaçmaz iqtisadi rayonunun payına düşmüşdür.

1995-2005-ci illərdə dənli bitkilərin əkin sahəsi 192,9 min ha və ya 31,7% artmış, əkinlərin tərkibində dənli bitkilərin xüsusi çəkisi 50,5%-dən 60,5%-ə yüksəlmişdir (1-ci cədvəl; 1-ci şəkil). Dənli bitkilər arasında əkinlərinin sahəsinə görə qabaqcıl yeri buğda becərilməsi tutur. 2005-ci ildə dənli bitki əkinlərinin 73,7%-ni buğda, 20,8%-ni arpa, 4,0%-ni dən üçün qarğıdalı təşkil etmişdir. 1995-ci ildən sonra buğda əkinləri 172,8 min ha və ya 41,3%, qarğıdalı əkinləri 3 dəfəyə qədər artmışdır (2-ci cədvəl).

***1-ci cədvəl***

Azərbaycanda kənd təsərrüfatı bitkilərinin əkin sahələri, min ha

| İllər | Dənli bitkilər | Texniki bitkilər | Kartof, tərəvəz, bostan | Yem bitkiləri | Çoxillik əkinlər | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Bağlar | Üzüm-lüklər | Çay əkinləri | Biçənək və otlaq | Sair əkinlər |
| 1995 | 609,4 | 227,0 | 49,4 | 322,1 | 121,0 | 110,3 | 13,2 | 2,5 | 64,5 |
| 1997 | 659,6 | 227,0 | 63,2 | 128,1 | 94,2 | 83,3 | 8,4 | 2,5 | 77,1 |
| 1999 | 519,2 | 105,0 | 107,4 | 101,1 | 79,6 | 35,1 | 6,5 | 2,6 | 128,8 |
| 2001 | 760,7 | 99,2 | 151,2 | 151,2 | 83,2 | 14,2 | 5,4 | 2,7 | 134,3 |
| 2003 | 776,3 | 88,9 | 164,3 | 190,0 | 87,6 | 8,9 | 3,7 | 2,7 | 125,8 |
| 2005 | 802,3 | 132,0 | 178,8 | 213,9 | 89,7 | 8,0 | 3,7 | 2,7 | 121,6 |

Cədvəl "Azərbaycanın ərzaq təhlükəsizliyi - 2005" statistik bülleteni əsasında verilir. Azərbaycan DSK . 2006. Səda, Bakı.

İqtisadi rayonlarda dənli bitkilərin əkin sahələri ciddi dəyişikliyə məruz qalmışdır. Bu dəyişikliklər bütün iqtisadi rayonları əhatə edir. 1996-2005-ci illərdə Abşeron iqtisadi rayonunda dənli bitkilərin əkinləri 2,1 dəfə azalmışdır. Digər iqtisadi rayonlarda isə taxıl əkinləri artmışdır. Artım Quba-Xaçmazda 64,8%, Naxçıvanda 48,2%, Gəncə-Qazaxda 44,0%, Şəki-Zaqatalada 36,2% olmuşdur. Əkin sahələrinin tərkibində taxıl əkinlərinin xüsusi çəkisi 2005-ci ildə Quba-Xaçmaz, Dağlıq Şirvan və Şəki-Zaqatalada 80,0%-dən, Lənkəran-Astarada 75,0%-dən, digər iqtisadi rayonlarda 55,0%-dən çox olmuşdur.

Dənli bitkilərin əkin sahəsinin artması ilə yanaşı, məhsuldarlığın artması da məhsul yığımının çoxalmasına gətirib çıxarmışdır. 1995-2006-cı illərdə ölkədə dənli bitkilərin yığımı 2,3 dəfə artmışdır. 2007-ci ildə əkin sahələrinin azalması hesabına bu göstəricidə qismən azalma getmişdir.

Lakin taxılçılıqda mövcud olan şərait əhalinin və heyvandarlıq sahələrinin taxıl məhsullarına olan tələbatının ödənilməsi üçün kifayət deyildir. Ölkənin bu məhsullara olan daxili tələbatının ödənilməsi üçün daha məhsuldar toxum növlərinin yetişdirilməsi, aqrotexniki tədbirlərin yüksək səviyyədə yerinə yetirilməsi vacibdir. Bu sahədə mineral gübrələrin istifadə edilməsi, məhsulun vaxtında və itkisiz yığılması, daşınması və xüsusi anbarlarda saxlanması mühüm əhəmiyyət kəsb edir.

Azərbaycanda əkin sahələri artan kənd təsərrüfatı bitkilərinə kartof, bostan-tərəvəz bitkiləri də aiddir. Onların əkin sahələri 1995-2005-ci illərdə 49,4 min hektardan 178,8 min hektara qədər və ya 3,6 dəfə artmışdır. Əkinlərin strukturunda bu sahələrin xüsusi çəkisi 4,1%-dən 13,5%-ə qədər qalxmışdır. Bu gün həmin sahələr kənd əhalisinin məşğul olduğu əsas sahələrdən biridir. Bu məhsulların emalını həyata keçirən müəssisələrin az olması onlardan səmərəli istifadə edilməsinə imkan vermir.


Kartof əkinləri 1995-2005-ci illərdə 4,4 dəfə, onların əkin sahələrinin tərkibində xüsusi çəkisi 1,3%-dən 5,3%-ə qədər artmışdır. Abşeron iqtisadi rayonundan başqa, digər iqtisadi rayonlarda onun əkinləri çoxalmışdır. Kartof əkinlərinin 54,9%-i Gəncə-Qazax iqtisadi rayonunda yerləşir. Sonrakı yerlərdə Lənkəran-Astara (13,4%) və Aran iqtisadi rayonları (10,6%) durur. Aranda kartof əkinlərinin 3,4 dəfə artması iqtisadi rayonda kartof əkinlərinin xüsusi çəkisinin də 2,7 dəfə artmasına səbəb olmuşdur. Kartof əkinlərinin xüsusi çəkisi Lənkəran-Astara, Naxçıvan və Quba-Xaçmazda da çox artmışdır.

***2-ci cədvəl***

Azərbaycanda kənd təsərrüfatı məhsullarının əkin yerləri, məhsuldarlığı və toplanan məhsullar

| Kənd təsərrüfatı məhsulları | Əkin yerləri, min ha | | | Məhsuldarlıq, s/ha | | | Yığılan məhsul, min t | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | İllər | | | | | | | | | |
| | 1995 | 2002 | 2006 | 1995 | 2002 | 2006 | 1995 | 2002 | 2006 | 2007 |
| Dənli bitkilər | 609,4 | 821,7 | 784,7 | 15,1 | 26,7 | 26,5 | 921,4 | 2195,9 | 2078,9 | 2004,2 |
| Pambıq | 210,4 | 61,0 | 102,8 | 13,0 | 13,2 | 13,0 | 274,1 | 80,4 | 130,1 | 100,0 |
| Tütün | 8,0 | 1,6 | 1,8 | 14,6 | 20,9 | 26,3 | 11,7 | 3,3 | 4,8 | 2,9 |
| Şəkər çuğunduru | 5,1 | 2,6 | 8,1 | 54,8 | 444,1 | 214,6 | 28,1 | 115,8 | 167,2 | 138,9 |
| Dən üçün qarğıdalı | 2,9 | 9,4 | 10,6 | 2,3 | 11,6 | 15,3 | 0,7 | 10,8 | 15,9 | - |
| Kartof | 16,0 | 57,6 | 66,8 | 97,0 | 116,0 | 145,0 | 155,5 | 694,9 | 999,3 | 1037,3 |
| Tərəvəz | 26,8 | 70,9 | 80,2 | 157,0 | 136,0 | 144,0 | 424,1 | 974,6 | 1186,4 | 1227,2 |
| Bostan məhsulları | 5,8 | 30,4 | 28,8 | 73,0 | 109,0 | 126,0 | 41,9 | 330,3 | 362,1 | 416,1 |
| Üzüm | 97,7 | 8,9 | 8,7 | 32,6 | 43,8 | 93,7 | 308,7 | 62,1 | 94,1 | 103,6 |
| Meyvə və giləmeyvə | 117,8 | 87,6 | 108,5 | 31,2 | 63,5 | 77,8 | 324,4 | 516,8 | 662,4 | 677,4 |
| Yaşıl çay yarpağı | 11,4 | 3,7 | 1,8 | 10,3 | 3,9 | 3,6 | 9,4 | 1,4 | 0,65 | 0,478 |

Cədvəl "Azərbaycanın statistik göstəriciləri - 2006" statistik bülleteni əsasında verilir. Azərbaycan DSK. nəşriyyatı. 2007. Səda, Bakı. 426-427.




**1-ci şəkil**

1995-ci ildə ölkədə 155,5 min ton yığılan kartofun miqdarı 2006-cı ildə 1 mln. tona çatmışdır. Məhsulun becərilməsi tamamilə əl əməyinə əsaslanır. 2005-ci ildə ölkənin kənd təsərrüfatı müəssisələrində 10 ədəd, o cümlədən "Aqroservis" müəssisələrində 1 kartofyığan maşın olmuşdur.

Kartofun əkin sahələrinin və məhsul yığımının belə yüksək səviyyədə artması onun məhsullarına yüksək tələbatla əlaqədardır. Eyni zamanda kartofun məhsuldarlığını az vaxtda yüksəltmək, düzənlik və dağətəyi zonalarda ildə 2 dəfə məhsul götürmək, məhsulların xeyli hissəsini ixrac etmək mümkündür.

Tərəvəz bitkilərinin əkin sahələri 1995-2005-ci illərdə 2,9 dəfə artmış, onların əkin sahələrinin tərkibində xüsusi çəkisi 2,2%-dən 5,9%-ə yüksəlmişdir. Bostan sahələri üzrə bu göstəricilər 5,2 dəfə artmış, xüsusi çəkisi 0,5%-dən 2,3%-ə qalxmışdır. Tərəvəz əkinlərinin sahəsi əksər iqtisadi rayonlarda 2 dəfə, Naxçıvanda 3,6 dəfə, Aranda 3,2 dəfə, Şəki-Zaqatalada 2,4 dəfə artmışdır. Tərəvəz əkinlərinin 35,0%-i Aranda, 15,2%-i Lənkəran-Astarada, 13,9%-i Gəncə-Qazaxda, 11,1%-i Quba-Xaçmazda yerləşir. Əkinlərinin strukturunda bu sahənin payı 6,0-11,0% arasında dəyişir. Bostan əkinləri Naxçıvan (5,8%) və Aranda (3,5%) əkinlərin xeyli hissəsini təşkil edir. Digər iqtisadi rayonlarda bu göstəricilər 1-2%-dən aşağıdır. Onun əkinlərinin 68,1%-i Aranda, 9,5%-i Naxçıvanda, 6,2%-i Lənkəran-Astarada yerləşir. Belə vəziyyət bu ərazilərdə onun əkin sahələrinin son 10 ildə dəfələrlə genişlənməsi ilə əlaqədardır.

Tərəvəz və bostan məhsulları becərilməsi yüksək əməktutumluluğu ilə fərqlənir. Burada meliorasiya tədbirlərinin görülməsi, ziyanvericilərə qarşı mübarizə vasitələrinin istifadə edilməsi, aqronom mütəxəssislərinin elmi tövsiyələrinin yerinə yetirilməsi ilə məhsuldarlığın artırılması mümkündür. Lakin bu tədbirlərə lazımi qədər əhəmiyyət verilmir və bu sahədə ciddi problemlər vardır. Ona görə 1995-ci ildən sonra tərəvəzin məhsuldarlığı hətta azalmışdır. Amma keçən müddət ərzində əkin sahələrinin genişləndirilməsi hesabına yığılan məhsullar 2,8 dəfə artmışdır. Bostan məhsullarının yığımı isə 8,64 dəfə yüksəlmişdir.

Yüksək dərəcədə əmək tutumluluğu ilə fərqlənən texniki bitkilərin becərilməsi və məhsul yığımı ciddi tənəzzülə uğramışdır. 1995-2005-ci illərdə texniki bitkilərin əkin sahəsi 95 min ha və ya 41,9% azalmış, əkin sahələrinin strukturunda payı 2,0 dəfə aşağı enmişdir. Əsas texniki bitkilər olan pambıq əkini sahələri 1,9 dəfə, tütün əkini sahələri 2,9 dəfə azalmışdır. Ölkədə pambıq əkinlərinin əsas mərkəzi hesab edilən Aran iqtisadi rayonunda 1996-2005-ci illərdə pambıq əkinləri 94,3 min ha və ya 2,0 dəfə azalmış, əkin sahələrinin tərkibində xüsusi çəkisi 33,9%-dən 16,7%-ə enmişdir. Nəticədə pambıq yığımı son 10 ildə 3 dəfəyə qədər azalmışdır. Son bir neçə ildə onun yığımı qismən artsa da (2005-ci ildə 196,6 min ton), 2007-ci ildə 100,0 min tona enmişdir.

Respublikada tütün az bir sahədə əkilir və məhsul istehsalı xeyli azalmışdır. 1995-2006-cı illərdə tütün yığımı 2,4 dəfə, 2006-2007-ci illərdə daha 1,7 dəfə azalmış və 2,9 min tona enmişdir. Bu gün ölkədə kənd təsərrüfatının tütünçülük və çayçılıq sahələri faktiki olaraq yox olmaq təhlükəsi qarşısındadır. Çayın həm əkin sahələri, həm də toplanan məhsul minimuma enmişdir. Hazırda

ölkədə 1,8 min ha sahədən 500 tondan da az yaşıl çay yarpağı yığılır.

Çoxillik əkinlərin tərkibində də dəyişikliklər baş vermiş, əkin sahələri təkcə azalmamış, həm də meyvə bağlarından başqa, üzümlüklər və çay plantasiyaları tamamilə məhv edilmişdir. Üzüm əkinləri 1995-2005-ci illərdə 110,3 min hektardan 9,6 min hektara qədər (11,5 dəfə), əkinlərin tərkibində xüsusi çəkisi 35,7%-dən 4,3%-ə qədər (8,3 dəfə) azalmışdır (2-ci şəkil). İqtisadi rayonlarda əkinlərin strukturunda üzümlüklərin xüsusi çəkisi dəfələrlə azalmışdır. Yalnız Dağlıq Şirvanda bağların 40,6%-i, Naxçıvanda 25,2%-i üzümlüklərdir. Dağlıq Şirvan (14,7%), Gəncə-Qazax (18,1%), Aran (12,8%) və Naxçıvanda (9,6%) üzüm əkinləri çoxdur.


Üzümlüklərin məhv edilməsi, çoxillik əkinlərin sahəsinin xeyli azalması onların strukturunda meyvə bağlarının xüsusi çəkisinin artması ilə nəticələnmişdir. Respublika üzrə bu göstərici 88,1%-ə yüksəlmiş, Şəki-Zaqatalada, Quba-Xaçmaz, Abşeron, Aran, Yuxarı Qarabağda 94,0-95,0%-dən çox olmuşdur. Gəncə-Qazaxda çoxillik əkmələrin 85,1%-ni, Naxçıvanda 75,0%-ni meyvə bağları tutur. Meyvə bağlarının yarısından çoxu Quba-Xaçmazda (27,6%) və Şəki-Zaqatalada (27,3%) yerləşir. Onların 1/5-i Aran iqtisadi rayonunun payına düşür.

Hazırda respublikada heyvandarlır yüksək sürətlə inkişaf etdirilsə də, yem bitkilərinin əkin sahələri və əkinlərin strukturunda xüsusi çəkisi tədricən azalır. Belə vəziyyət heyvandarlığın yem bazasının yaradılmasına ciddi təsir göstərir.

Son illərdə ölkənin kənd təsərrüfatında yeni yaradılan sahələr sırasına şəkər çuğunduru əkilməsi də daxildir. 1995-ci ildən sonra şəkər çuğunduru əkini sahələri 58,8% artmış, əkin sahələrinin məhsuldarlığı 4 dəfə yüksəlmişdir. Nəticədə məhsul yığımı 1995-2006-cı illərdə 6,0 dəfə artmışdır. Şəkər çuğundurunun emalı üçün İmişlidə şəkər emalı zavodunun tikilməsi bu sahənin gələcəkdə də inkişaf etdirilməsinə imkan verəcəkdir.

Kənd təsərrüfatında çalışanlar iqtisadiyyatda məşğul olan əhalinin 40,0%-nə qədərini təşkil edir. 2003-cü ildə bu sahələrdə 1497,0 min nəfər, 2006-cı ildə 1548,0 min nəfər çalışmışdır. 2006-cı ildə kənd təsərrüfatı, ovçuluq, balıqçılıq və meşə təsərrüfatı sahələrinə 1341 kiçik müəssisədə 8418 nəfər, 6 xarici və müştərək müəssisədə 266 nəfər çalışmışdır. Ölkədə fəaliyyət göstərən 2456 fərdi sahibkarlıq təsərrüfatında 10848 nəfər işləmişdir, qalan məşğul olan əhali şəxsi mülkiyyətə məxsus olan torpaqların payına düşür (Azərbaycanin statistik…, 2007) .

İqtisadiyyatın fəaliyyət göstərən sahələri üzrə əsas kapitala yönəlmiş investisiyalarda kənd təsərrüfatı, ovçuluq və meşə təsərrüfatının xüsusi çəkisi 0,9%, sənayenin payı 68,9%, o cümlədən xam neft və qaz hasilatı sahəsinin payı 54,3%-dir. 2006-cı ildə istifadəyə verilmiş əsas fondlarda kənd təsərrüfatı, ovçuluq və meşə təsərrüfatının payı 0,7%-dir.




**2-ci şəkil**

**Nəticə:** Azərbaycanın kənd təsərrüfatı ekstensiv xarakterli, çox aşağı məhsuldarlığa, maddi-texniki bazaya və təchizata malik olan, daxili tələbatın az bir hissəsini ödəyən sahədir.

Bu gün aqrar sahənin ən mühüm problemi bitkilərin məhsuldarlığının artırılmasıdır. Daha məhsuldar bitki növləri əldə edilməsi, heyvandarlığın cins tərkibinin yaxşılaşdırılması üçün əsaslı elmi-praktiki işlər görülmür. Kənd təsərrüfatının intensiv inkişafı istiqamətində seleksiya işləri aparılması, heyvandarlıqda tövlə şəraitinin tətbiqi və məhsuldar heyvan cinslərinin saxlanması zəruridir.

Aqrar sahənin ixtisaslı kadrlar, mineral gübrələr, ziyanvericilərə qarşı mübarizə vasitələri ilə təmin edilməsi, meliorasiya işləri aparılması üçün suvarma kanallarının çəkilməsi, mövcud sistemlərin təmiri, yenidən qurulması, lildən təmizlənməsi, kollektor-drenaj şəbəkəsinin genişləndirilməsi və təmiri sahəsində az işlər görülür.

**ƏDƏBIYYAT**

AZƏRBAYCANIN statistik göstəriciləri. 2006. 2007. *Azərbaycan DSK kitabında*, Səda. Bakı.

AZƏRBAYCANIN kənd təsərrüfatı. 2007. *Azərbaycan DSK* kitabında, Səda. Bakı.

2007-ci ILDƏ ölkənin sosial-iqtisadi inkişafı. Azərbaycan DSK-nın məlumatı. "Respublika" qəzeti, fevral 2008.

AZƏRBAYCANDA ərzaq təhlükəsizliyi – 2006. 2006. *Azərbaycan DSK* kitabında, Səda. Bakı.

***Məqaləyə c.e.n T.Həsənov rəy vermişdir***